Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

14
İYUN
2019-cu il

№ 104 (4002)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTANLA UYDURMA «DQR» ARASINDA ZİDDİYYƏTƏ DAİR YENİ ALDADICI «ERMƏNİ VERSİYASI» - ŞƏXSİ DÜŞMƏNÇİLİK...

■ səh. 6 ■

Azərbaycan Prezidenti görməsi məhdud insanları da unutmadı
■ səh. 4 ■

Azərbaycan banklarına qarşı 200 min baxılmamış məhkəmə işi var - Prezident yeni perspektiv açdı...
■ səh. 4 ■

Azərbaycan yeni üçtərəfli hərbi əməkdaşlıq formatı ilə Ermənistanın regional təcridini dərinləşdirdi...
■ səh. 5 ■

Ermənilər daxil, bir neçə ölkə politoloqlarının ortaq rəyi - Paşinyanın konkret Qarabağ strategiyası yoxdur
■ səh. 9 ■

Qarabağda müharibə risqi və Xəzərin iqtisadi potensialları üzərində düşünən dövlətlərə mesaj...
■ səh. 7 ■

Ermənilərin Qarabağda dağıtdıqları mədəniyyət irsimiz beynəlxalq sərgidə...
■ səh. 10 ■

Yazıçılar Birliyində məhkəmə qalmaqalı - Çingiz Abdullayev Elşad Baratı niyə məhkəməyə verir...
■ səh. 12 ■

Bakıda pis və yaxşı çimərlikləri baxan kimi müəyyənləşdirmək olacaq
■ səh. 14 ■



■ səh. 11 ■

## Bakı-Tiflis-Qarsın fantastik nəticəsi - Avrasiyada yükdaşımalar coğrafiyası tamamilə Azərbaycanın lehinə dəyişdi...





Heydər Əliyev gəlməsəydi - Azərbaycanın qonşu dövlətlərlə münasibətlərinin indikindən köklü fərqli mənzərəsi...
■ səh. 3 ■

Paşinyanın məhkəmələri cəza alətinə çevirən «islahatlarına» Avropa Şurasının baş katibindən inanılmaz dəstək...
■ səh. 7 ■

Azərbaycan-Türkiyə-Gürcüstan hərbi üçbucağının Ermənistanda yaratdığı böyük sual - təlimlər nə məqsədlə keçiriləcək...
■ səh. 8 ■

■ səh. 2 ■
"Jurnalist barədə hökmü siyasiləşdirənlər öz mənafelərini güdürlər"



■ səh. 3 ■
Fransa şəhərlərinin qondarma "DQR"dən imtinasının intensivləşmə səbəbləri...



■ səh. 13 ■
Xaricdə dövlət hesabına təhsil alan tələbələrimizin sayında azalma...



■ səh. 15 ■
Ağacdan "adam yonan" gəncəli Mahirin nadir sənətini kim və necə xilas edəcək...



■ səh. 14 ■
Marketlərdə satılan pəhriz qidalara nə qədər etibar etmək olar...





## Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev iyunun 13-də** Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Azərbaycan Avroittifaq ölkələrinə 15 milyard dollar investisiya yatırıb



**Avropa İttifaqı tərəfindən Azərbaycan iqtisadiyyatına yatırılan investisiyalar 33 milyard dollardan çoxdur.**

"Trend"in məlumatına görə, bunu İqtisadiyyat naziri Şahin Mustafayev Bakıda V Avropa İttifaqı (Aİ) - Azərbaycan biznes forumunda deyib. Nazirin sözlərinə görə, zərbaycanın Avropa İttifaqı ölkələrinə yatırdığı investisiyalar təxminən 15 milyard dollar təşkil edir. Ş.Mustafayev əlavə edib ki, Aİ və Azərbaycan arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir və Azərbaycan Aİ-nin Cənubi Qafqazda əsas tərəfdaşıdır. Belə ki, Aİ-nin Cənubi Qafqazdakı ticarət dövriyyəsinin 78 faizi Azərbaycanın payına düşür.

Nazir həmçinin vurğulayıb ki, Azərbaycanda Aİ-dən olan 1600 şirkət fəaliyyət göstərir. Qeyd edək ki, V Avropa İttifaqı (Aİ) - Azərbaycan biznes forumunda təxminən 1000-ə yaxın şirkət və nümayəndə iştirak edir.

## Komitə sədri "Qaloş piri" ilə bağlı görüntülərə münasibət bildirdi - Xurafatdır

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Goranboyda "Qaloş piri" ilə yayılan görüntülərə münasibət bildirib. "Trend"in məlumatına görə, M.Qurbanlı jurnalistlərə açıqlamasında deyib ki, Goranboyda "Qaloş piri" ilə bağlı yayılan görüntülər təəssüf hissi doğurur.**

O qeyd edib ki, orada daimi olaraq bu cür tədbirlərin keçirilməsi ilə bağlı Komitədə məlumat yox idi:

"Komitənin yerli şöbəsi həmin yerdə araşdırma aparıb və orada adamlara izah olunaraq xəbərdarlıq edilib ki, bu cür hərəkətlər qanunazidd və xurafatdır. Əminəm ki, onlar da müəyyən nəticə çıxarıblar və bu hal təkrar olunmayacaq. Burada xurafat elementinin olması insanların müəyyən məsələləri kifayət qədər bilməməsindən irəli gəlir. Çünki bilirik ki, insan sağlamlığının olması öz əlindədir və səhhətində problem varsa, həkimə getməlidir".

## "Türkdilli Dövlətlərlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti" Almaniyada erməni vandalizmi mövzusunda tədbir keçirəcək

**"Türkdilli Dövlətlərlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti" İctimai Birliyi 16 iyun 2019-cu il tarixində Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə Almaniyanın Köln şəhərində Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi vandalizmin tarixi faktlar və hüquqi sənədlər əsasında Almaniya ictimaiyyətinə çatdırılması mövzusunda tədbir həyata keçirəcək.**

Şuranın dəstəyilə alman dilinə tərcümə edilən AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Vasif Qafarovun müəllifi olduğu "Azərbaycan türklərinə qarşı erməni təcavüzünün xronikası" adlı kitab və bukletlər tədbir iştirakçılarına paylanacaq.

# Aydın Quliyev: "Jurnalist barədə hökmü siyasiləşdirənlər öz mənafelərini güdürlər"

**"Reallıq info" saytının keçmiş baş redaktoru İkram Kərimov uzun illər jurnalist adı ilə bir araya sığmayan fəaliyyətlərinin məntiqi nəticəsi olan bir sonluğa yetişdi.**

Onun bu nöqtəyə gəlib çata biləcəyini hesablayan Mətbuat Şurasının idarə heyəti bunun qarşısını almaq üçün əlindəki imkanları sərf etməyə çalışdı. Təəssüf ki, jurnalistika meydanında qeyri-qanuni üsullarla hərəkət etməyə aludəçilik dərinə işlədiyinə görə İkram Kərimov sağlam tövsiyələrə və ictimai qınağa əhəmiyyət vermədi".

Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktorun sözlərinə görə, İkram Kərimov vaxtında Mətbuat Şurasının tövsiyələrinə əməl etsəydi, bu gün məhkəmə hökmünün əsaslı hədəfinə çevrilməzdi.

A.Quliyev bildirib ki, sözügedən baş redaktor guya əsassız təqibə məruz qaldığını sübut etmək kimi perspektivsiz yola baş vurmaqdansa, səhvlərindən nəticə çıxarsa daha doğru yolda



ola bilər: "Eyni sözləri onun həbsini siyasi mövzu alətinə çevirmək istəyənlərə də aid etmək lazımdır. Bu gün müəyyən qüvvələr və şəxslər İkramın məhkəmə hökmünü siyasiləşdirməklə əslində öz qrup mənafelərini düşünür və onun özü barədə daha düzgün nəticələr çıxarmasına imkan vermirlər".

Baş redaktor qeyd edib ki, bu vəziyyət ilk növbədə İkramın özünü düşündürməli və normal jurnalist fəaliyyətinə qayıtmaq üçün yollar axtarışına yönləndirməlidir: "Bütün hallarda İkramın hökmünü siyasiləşdirənlər ona yaxşılıq yox, pislik edirlər".

# DTX xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən baş redaktoru ifşa etdi

**Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) aparılan istintaq-əməliyyat tədbirləri nəticəsində 1989-cu il təvəllüdlü Azərbaycan vətəndaşı, "xeberman.com" və "press-az.com" informasiya saytlarının təsisçisi və baş redaktoru Aslanov Polad İsrayıl oğlu dövlətə xəyanət cinayət əməllərinə görə şübhəli şəxs qismində saxlanıb.**

DTX-dan baki-xeber.com-a verilən məlumata görə, müəyyən edilib ki, Polad Aslanov xarici xüsusi xidmət orqanlarının əməkdaşları ilə respublikadan kənarda məxfi görüşlər keçirib, aldığı pul vəsaitinə dair qəbzləri imzalayıb müntəzəm pul vəsaitləri ödənilməsi şərtilə maddi maraq müqabilində məxfi





əməkdaşlığa cəlb edilib.

O, xarici xüsusi xidmət orqanlarının əməkdaşlarından aldığı tapşırıqlar əsasında Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə istifadə etmək üçün topladığı məlumatları həmin orqanlara ötürüb, onların tapşırığı ilə mətbuatda, sosial şəbəkələrdə dövlət əleyhinə, hüquq-mühafizə orqanlarının qanuni fəaliyyətini nüfuzdan salmağa yönəlmiş yazılar yayımlamağa razılaşıb.

Polad Aslanov adları istintaq sirri kimi hazırda açıqlanmayan jurnalistləri gələcək əməkdaşlıq imkanları üzrə xarici ölkə ərazisində həmin xüsusi xidmət orqanı əməkdaşları ilə tanış edib.

İstintaq zamanı Polad Aslanovun Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd olaraq xarici xüsusi xidmət orqanı nümayəndələri ilə əməkdaşlığına dair çoxsaylı materiallar əldə edilib. Törətdiyi cinayət əməlləri barədə ətraflı məlumatlar verən P.Aslanov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb olunub.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# "Yanardağ" qoruğuna əcnəbi turistlər üçün giriş haqqı dəyişdiriləcək

**Avqustun 1-dən "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna əcnəbi turistlər üçün giriş haqqı dəyişdiriləcək.**

"Trend"in məlumatına görə, bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev "Yanardağ" qoruğuna mediatur zamanı jurnalistlərə deyib.

Onun sözlərinə görə, avqustun 1-dən əcnəbi turistlər üçün "Yanardağ"a giriş haqqı 9 manat olacaq: "Avqustun 1-dən qiymətlər fərqli olacaq.



Yerli turistlər üçün qiymətlər yenə də 2 manat olacaq. Amma tələbələr üçün qiymət 1 manat, məktəblilər üçün isə pulsuz olacaq".

Agentlik sədri qeyd edib ki, əcnəbi turistlər üçün qiymət artımı olsa da, buraya turist səfəri təşkil etməyi nəzərdə tutan və bununla bağlı uzunmüddətli müqavilələsi olan turizm şirkətləri üçün köhnə qiymətlər tətbiq ediləcək.

F.Nağıyev əlavə edib ki, gün ərzində "Yanardağ"a 500-700 əcnəbi turist gəlir: "Hazırda da turistlərin sayında dinamika müşahidə edilir. Yerli əhali də bura gəlməyə maraqlıdır. Bura gələnlərin sayını artırmaq üçün təbliğatı davam etdirməliyik. Hotellərdə, turizm informasiya mərkəzlərində "Yanardağ"la bağlı məlumatlar olacaq".

# Heydər Əliyev gəlməsəydi - Azərbaycanın qonşu dövlətlərlə münasibətlərinin indikindən köklü fərqli mənzərəsi...

**Azərbaycanın müstəqillik dövrü xarici siyasət xəttinə nəzər saldığımız zaman 3 mərhələni müşahidə etmək mümkündür. Birinci mərhələ suverenliyini və müstəqilliyini elan etməsinə baxmayaraq, hələ də SSRİ-nin və onun varisi olan Rusiyanın təsirindən çıxa bilməyən Azərbaycanın yeni şəraitdə məhdud xarici əlaqələri ilə xarakterizə edilə bilər.**

1992-1993-cü illərin ortalarına qədər olan dövrü əhatə edən ikinci mərhələ isə, birmənalı şəkildə, qərbmeyilli siyasət yürütmək cəhdləri, regionun iri gücləri ilə münasibətlərin gözardı edilməsi şəraitində milli dövlətçiliyin ciddi təhlükələr girdabına sürüklənməsi ilə xarakterizə olunur.

Naşı AXC-Müsavat hakimiyyətinin apardığı uğursuz xarici siyasət səbəbindən regiondakı bəzi qonşu dövlətlərlə münasibətlər pisləşmişdi. Qərbə inteqrasiya xəttini seçən cəbhə hakimiyyəti, faktiki olaraq, Rusiya hakimiyyətini Azərbaycana qarşı qıcıqlandırırdı. Həmin mərhələdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün həyata keçirdiyi səbatsız, səriştəsiz siyasət kursu ölkəmiz üçün ağır nəticələrə gətirib çıxardı. Nəticədə məhz həmin illərdə torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi.

Bununla yanaşı, o vaxtkı hakimiyyətin mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qaldırması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşdi. Sözügedən hakimiyyətin yarıtmaz siyasəti nəticəsində, faktiki olaraq, Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşdü.

1993-cü ilin iyununda Heydər Əliyev Bakıya gəlməklə Azərbaycanı təkcə parçalanmaq təhlükəsindən xilas etmədi, eyni zamanda, qonşularla olan münasibətləri yoluna qoydu. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə xarici siyasətdə yeni bir mərhələ başlandı. Bu mərhələ dünyanın geosiyasi güclərinin strateji və iqtisadi maraqlarının kəsişdiyi regionda yerləşən Azərbaycanın xilası mərhələsi idi. Aparılan balanslaşdırılmış xarici siyasət nəticəsində işğalçı Ermənistan xaric, bütün qonşu dövlətlərlə normal münasibətlər quruldu.

Maraqlıdır, Heydər Əliyev gəlməsəydi, Azərbaycanın qonşu dövlətlərlə münasibətləri indiki səviyyədə olardımı?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov bunu istisna etdi.** Onun fikrincə, Heydər Əliyev gəlməsəydi, qonşu dövlətlərlə münasibətlər indiki səviyyədə olmazdı: "90-cı illərin əvvəli ziddiyyətli bir dövr idi. Ölkədə hərcmərclik, qarşıdurma mövcud idi. Faktiki olaraq ölkə dağılmaq və vətəndaş müharibəsi ərəfəsində idi. Heydər Əliyev hakimiyyətə qayıtmaqla nəinki ölkədə sabitliyi bərpa edə bildi, hətta bir sıra aparıcı ölkələrlə münasibətləri yoluna qoydu. O cümlədən, Azərbaycanın qonşu dövlətlərlə münasibətlərini bərpa edib inkişaf etdirdi. Çünki siyasətdə aparıcı qonşu dövlətlərin maraqları ilə hesablaşmamaq olmaz. Biz dünya səviyyəsinə çıxmaq istəyiriksə, bəzi məqamlar qonşu dövlətlərin atdığı siyasi addımlardan asılıdır. Ona görə də Rusiya və İranla ikitərəfli müqavilələr bağlandı. Partnyorluq haqqında sazişlər imzalandı, qarşılıqlı səfərlər baş tutdu. Biz, faktiki olaraq, özümüzü müxtəlif problemlərdən, risqlərdən sığortaladıq. Bütün bunlardan sonra inkişaf dövrü başladı. Aparılan balanslı siyasət böyük və qonşu dövlətlərlə münasibətlərin qurulmasında öz töhfəsini verdi.

Bir sıra addımlarımızı atdıq, xarici siyasətdə prioritetlər, istiqamətlər meydana gəldi. Bütün bunlardan istifadə edərək, öz maraqlarımızı qoruduq. Dünya birliyi, beynəlxalq strukturlar, digər aparıcı strukturlar Azərbaycanla hesablaşdılar. Nəticədə bir sıra sazişlərə imza atdılar. Beləliklə, bütün bunlar Azərbaycanın uğurlarını təmin etdi".

***Fikrət Sadıqov:** "O zaman gəlməsəydi, qonşu dövlətlərlə münasibətlər indiki səviyyədə olmazdı"*



*"Aparılan balanslı siyasət böyük və qonşu dövlətlərlə münasibətlərin qurulmasında öz töhfəsini verdi"*

***Vidadi ORDAHALLI***

# Fransa şəhərlərinin qondarma "DQR"dən imtinasının intensivləşmə səbəbləri...

**Fransanın Serji-Pontuaz məhkəməsinin Arnuvilin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sını ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də bənzər qərar qəbul olunub. Bu barədə Fransadakı erməni diasporunun media orqanlarından biri məlumat yayıb.**



Məlumatda Qrenobl məhkəməsinin 4 "dostluq xartiyası"nı ləğv etdiyi bildirilir. Vurğulanır ki, prefektin müraciəti əsasında Qrenobl inzibati məhkəməsi iyunun 11-də Drom departamentinin özü, həmçinin, bu departamentdə yerləşən Valans, Bur-le-Valans və Bur-dö-Peaj kommunaları ilə Azərbaycanın 25 ildən artıqdır işğal altında olan ərazilərindəki inzibati bölgələr arasında imzalanmış dörd "xartiya"nı ləğv edib.

Bu "xartiya"ların ləğv olunmasının səbəbləri kimi onların Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə uyğun gəlməməsi, həmçinin, bu ölkənin ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi bitərəfliyini şübhə altına alması göstərilir. Qeyd edək ki, bu, Fransanın deyilən istiqamətdə atdığı ilk addım deyil. Bir neçə gün əvvəl başqa bir yerli məhkəmə də analoji qərar qəbul etmişdi. Fransada qondarma "DQR"lə bağlı prosesin belə xarakter alması nəyin əlaməti sayıla bilər?

**Beynəlxalq məsələlər üzrə ekspert, politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun bir sıra səbəbləri var:** "Fransa sıradan bir ölkə deyil. Dünya siyasətində belə onun rəyi ilə hesablaşırlar. Xüsusilə də Dağlıq Qarabağ probleminin həlli ilə bağlı məsələdə fəallıq göstərməyə həmin ölkənin əlində tam əsas var. Çünki bununla bağlı rəsmi həmsədrlik statusuna malikdir. Biz münaqişənin həlli boyunca Fransadan fəallıq görmüşük. Ancaq hiss etmişik ki, bu fəallığı belə biz ondan zorla qoparmışıq. Çünki həmin ölkədə olan çox güclü erməni diasporu bacardığı qədər buna təsir etməyə çalışıb. Bəli, həmin ölkədəki erməni diasporu olduqca güclüdür və hətta deyərdim ki, Fransa siyasətinə belə təsir etmək gücündədir. Zaman-zaman bizim Fransa ilə aramızda yaranan kiçik anlaşılmazlıqlar da məhz həmin dairələrin səyi nəticəsində yaranıb. Bu münasibətlərə xələl gətirən və hətta Fransanın özünün belə demokratik imicinə kölgə salan mövzulardan biri də həmin ölkənin əyalət subyektlərinin qondarma "DQR"lə ikitərəfli əlaqələr qurması, qarşılıqlı səfərlərin təşkili olub. Biz buna daim etiraz etmişik. Ancaq hər dəfə Fransanın mərkəzi hakimiyyəti əyalət subyektlərinin bu cür məsələlərdə sərbəst olmalarını əsas gətirərək məsuliyyətdən yayınıb. Hətta bildirib ki, belə mövqenin Fransanın rəsmi mövqeyinə heç bir aidiyyəti yoxdur. İstənilən halda, həmin hərəkətlər bizi dərindən narahat edirdi və Fransanın da həmsədr kimi neytrallıq imicinə zərbə vururdu. İndi isə Fransa məhkəmələri ard-arda "DQR" məsələsini silir və onun kitabını bağlayır. Bütün bunların əsaslı səbəbləri var. Çünki məhkəməyə müraciət edən subyektlər bunu əvvəl etməkdə maraqlı deyildilər. İndi isə edirlər. Deməli, ölkələr arsındakı münasibətlərdə yeni mərhələ başlayıb. Fransa ermənilərin dünyada nüfuzlarını itirdiklərini anlayır, buna görə də maksimum dərəcədə erməni diasporunun təsirlərini neytrallaşdırmağa çalışır.

Hesab edirəm ki, Fransanın nümayiş etdirdiyi bu obyektiv mövqe onun dünyadakı nüfuzunu daha da artıracaq. Bu, eyni zamanda, Fransa ərazi subyektləri üçün də bir örnək olacaq ki, həmin separatçı qurumla əməkdaşlıq yolverilməzdir. Erməni diasporu onları nə qədər şirnikləndirməyə çalışsa da, mümkünsüz olacaq".

***Yeganə Hacıyeva:** "Fransa ermənilərin dünyada nüfuzlarını itirdiklərini anlayır, buna görə də maksimum dərəcədə erməni diasporunun təsirlərini neytrallaşdırmağa çalışır"*

***Məhəmmədəli QƏRİBLİ***

**Dinamik iqtisadi tərəqqi dövrünü yaşayan ölkəmizdə sosial cəhətdən həssas əhali qruplarına xüsusi qayğı göstərilir. Əlilliyi olan şəxslərin, o cümlədən, gözdən əlillərin də sosial müdafiəsinin gücləndirilməsinə şərait yaradılır.**

# Azərbaycan Prezidenti görməsi məhdud insanları da unutmadı



## *Səmyar Abdullayev: "Yeni yaşayış binasında təxminən 300 nəfər mənzillə təmin olunacaq"*

Azərbaycanda gözdən əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi sahəsində aparılan işlərin bir istiqaməti də onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlib.

Prezident İlham Əliyevin 11 iyun 2019-cu il tarixli Sərəncamı həmin kateqoriyadan olan vətəndaşların mənzillə təminatına xüsusi qayğının növbəti göstəricisi olmaqla, bu istiqamətdə növbəti addımın atılmasına imkan verib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, sərəncam Bakı şəhərində gözdən əlilliyi olan şəxslər üçün inşa ediləcək çoxmənzilli binanın layihə-smeta sənədlərinin hazırlanması məqsədilə 300 min manat vəsait ayrılmasını nəzərdə tutur. Cari ildə müvafiq layihə-smeta sənədlərinin hazırlanması işləri aparılmaqla, paytaxtda gözdən əlilliyi olan şəxslər üçün daha bir çoxmənzilli yaşayış binasının tikintisinə başlanacaq.

Binada mənzillə təmin ediləcək gözdən əlilliyi olan şəxslərin rahatlığı üçün xüsusi layihə əsasında məişət şəraiti yaradılacaq. Onların əl və ayaqla hiss etmələrinin asanlaşdırılması məqsədilə müvafiq yerlərdə xüsusi tikinti materiallarından və işarələrdən istifadə olunacaq. Binanın tikintisinin gələn il ərzində yekunlaşdırılaraq istifadəyə verilməsi planlaşdırılır.

Məlumat üçün bildirək ki, bu təbəqədən olan şəxslərin mənzillə təminatı proqramının davamı olaraq, son illərdə gözdən əlilliyi olan şəxslər üçün Bakının Nərimanov rayonunda 132 mənzildən ibarət yaşayış binası tikilərək istifadəyə verilib.

Maraqlıdır, yeni tikiləcək yaşayış binasında gözdən əlilliyi olan neçə şəxs mənzillə təmin olunacaq? Ümumiyyətlə, Gözdən Əlillər Cəmiyyətində mənzil növbəsində olan neçə şəxs var?

**Bu kimi suallara aydınlıq gətirmək üçün Azərbaycan Gözdən Əlillər Cəmiyyəti İctimai Birliyinə müraciət etdik. Birliyin sədri Səmyar Abdullayev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, gözdən əlil vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı Prezident İlham Əliyevin sərəncamına əsasən yaşayış binasının tikilməsi bu qəbildən olan insanların sevincinə səbəb olub.**

*"Təxminən 600 gözdən əlil sosial şəraitinin yaxşılaşdırılması üçün mənzil növbəsindədir"*

Onun sözlərinə görə, bu gün Bakı şəhərində 600-ə yaxın gözdən əlil mənzil növbəsindədir. 2015-ci ildə gözdən əlillərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə 132 mənzil onların istifadəsinə verildi. Yeni binanın inşa olunması üçün bu sahəyə vəsait ayrılıb:

"Məlumat üçün bildirim ki, bu il yeni binanın layihəsi hazırlanıb, gələn il isə tikintiyə başlanacaq. Yeni yaşayış binasında təxminən 300 nəfər mənzillə təmin olunacaq".

**Həmsöhbətimiz hesab edir ki, gözdən əlillərin sosial müdafiəsinin gücləndirilməsi üçün tikiləcək bina 3 il ərzində hazır olacaq. Bina hazır olandan sonra 300-ə yaxın gözdən əlil yeni mənzillə təmin olunacaq.**

***Günel CƏLİLOVA***

---

**Məlum olduğu kimi, ölkəmizdə kommersiya məhkəmələri yaradılacaq. Belə ki, "Məhkəmələr və hakimlər haqqında" Qanuna yeni maddə əlavə olunur. Əlavə edilən 46.1-ci maddəyə əsasən, kommersiya məhkəmələri birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş kommersiya mübahisələrinə dair işərə baxır.**

# Azərbaycan banklarına qarşı 200 min baxılmamış məhkəmə işi var - Prezident yeni perspektiv açdı...




## *Vamiq Şükürov: "Kommersiya məhkəmələri fəaliyyətə başlasa, bank sistemi ilə bağlı bu qədər məhkəmə işi yığılıb qalmaz"*

Kommersiya məhkəməsi məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, təcrübəsini öyrənir və ümumiləşdirir, ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

O da məlum olub ki, yeni məhkəmələr sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə yaradılır. Yeni yaradılacaq məhkəmə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələr, sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlərə baxacaq, bu barədə təkliflər hazırlayan Ədliyyə Nazirliyindən bildirilib.

Belə fikirlər var ki, sahibkarların işini yüngülləşdirmək və onların öz məsələlərini məhkəmələrdə daha rahat həll edə bilmələri üçün bu məhkəmələr yaradılır. Digər tərəfdən, kommersiya məhkəmələri digər məhkəmələrin iş yükünü yüngülləşdirə bilər. Məsələ ondadır ki, bank sistemi ilə əlaqədar 200 mindən çox məhkəmə işi var. Məhkəmələrdəki işlər çox olduğu üçün, çox vaxt çatdıra bilmirlər. O üzdən, sözügedən məhkəmələr bu baxımdan da faydalı ola bilər.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən hüquqşünas Vamiq Şükürovun fikrincə, kommersiya məhkəmələri bu məsələdə müsbət rol oynaya bilər:** "Prezident İlham Əliyevin məhkəmə-hüquq islahatları barədə məlum fərmanında hakim korpusunun artırılması, kommersiya məhkəmələrinin yaradılması və digər hüquqi islahatların həyata keçirilməsi nəzərdə tutulub. İqtisadi mübahisələrlə bağlı məhkəmələrin yubanması müxtəlif səbəblərlə bağlıdır. Bunun başlıca səbəbi hakimlərin sayının az olmasıdır. Yeni

*"Sözügedən mübahisələrə baxılması vaxt tələb etdiyi üçün, buna xüsusi savada malik olan hakimlər baxmalıdırlar"*

bununla bağlı əhalinin müraciət sayına hakimlər tam uyğun gəlmir. Ona görə də məlum fərmanda hakimlərin sayının artırılması nəzərdə tutulub. Başqa bir tərəfdən, kommersiya və iqtisadi mübahisələr özünəməxsus xüsusiyyətlərə malikdir. Bura sahibkarlarla dövlət orqanları arasında mövcud olan, müqavilələrdən irəli gələn, o cümlədən, digər iqtisadi mübahisələr daxildir. Sözügedən mübahisələrə baxılması vaxt tələb etdiyi üçün, buna xüsusi savada malik olan hakimlər baxmalıdırlar.

**Ona görə də bu işlərə kommersiya məhkəmələri baxsa, daha məqsədəuyğun olar. Hələlik bu kimi məsələlərə, yəni iqtisadi mübahisələrə inzibati-iqtisadi məhkəmə tərkibində baxılır. Bu da hakimlərin iş yükünü artırır. Fikrimcə, kommersiya məhkəmələri fəaliyyətə başlasa, bank sistemi ilə bağlı bu qədər məhkəmə işi yığılıb qalmaz".**

***Vidadi ORDAHALLI***

# Azərbaycan yeni üçtərəfli hərbi əməkdaşlıq formatı ilə Ermənistanın regional təcridini dərinləşdirdi...

**İyunun 12-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Levan İzoriya arasında üçtərəfli görüş keçirilib.**

Görüşdə müdafiə nazirləri regionda cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələlərini müzakirə ediblər. Tərəflər, həmçinin, üçtərəfli hərbi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər aspektlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Sonda danışıqların yekununa dair protokol imzalanıb. Sənədi Azərbaycanın müdafiə naziri, general-polkovnik Z.Həsənov, Türkiyənin milli müdafiə naziri H.Akar və Gürcüstanın müdafiə naziri L.İzoriya imzalayıblar. Sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib.

Azərbaycanın müdafiə naziri, general-polkovnik Z.Həsənov bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstan, digər sahələrdə olduğu kimi, müdafiə sahəsində də əməkdaşlığı inkişaf etdirirlər. Görüşdə üç qonşu, dost dövlətin müdafiə nazirlərinin iş planına daxil olan məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Gürcüstanın müdafiə naziri L.İzoriya isə qeyd edib ki, Gürcüstan gələcəkdə Azərbaycanın və Türkiyənin keçirəcəyi birgə təlimlərə maksimum şəkildə qoşulacaq.

Azərbaycan Ermənistan istisna olmaqla, bütün qonşuları ilə yaxın münasibətlər qurur. Göründüyü kimi, bizim qonşularla əməkdaşlığımız yalnız iqtisadi sferanı əhatə etmir. Həmçinin, hərbi sahədə də ciddi əməkdaşlıq edirik. Maraqlıdır ki, Ermənistan bu sarıdan da Azərbaycanla müqayisə oluna bilməz. Çünki iqtisadi layihələrdə iştirakın olmadığını onlar mövcud vəziyyət və yerləşdikləri əlverişsiz coğrafi məkanla əlaqələndirirlər. Ancaq görünən budur ki, Azərbaycan hərbi əməkdaşlıq istiqamətində də həyata keçirdiyi uğurlu siyasətlə Ermənistanı daha bir təcrid vəziyyətinə salıb. Ermənistanın yaxın qonşuları tərəfindən üçtərəfli hərbi əməkdaşlıqla hərbi sahədə də blokadaya alınması nəyin əlaməti sayıla bilər?

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, həmin ölkələrin Ermənistandan istənilən istiqamətdə məsafə saxlamasının obyektiv səbəbləri var: "Bu, Ermənistanın, demək olar ki, bütün qonşularına qarşı əsassız ərazi iddiaları ilə çıxış etməsinin nəticəsidir. Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarına, Türkiyənin Anadolu bölgəsinə, Gürcüstanın isə Cavaxetiya regionuna iddia etməsi Qafqazda sabitliyin yaranmasını əngəlləyən əsas faktordur. Buna görə də üç respublikanın region ölkələri ilə arasında yaranan çoxtərəfli əməkdaşlıq layihələrində Ermənistanın adına rast gəlinmir.

Hazırkı mərhələdə Azərbaycan regional müstəvidə bir neçə üçtərəfli formatın təşəbbüskarı və ya iştirakçısıdır. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkiyə-Türkmənistan və Azərbaycan-Rusiya-İran formatları regional məsələlərin müzakirəsi, əməkdaşlıq əlaqələrinin inkişafı, birgə layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətli təşəbbüslərdir. Bu yeni trend, eyni zamanda, Azərbaycanın təcavüzkar Ermənistanı çıxmaq şərtilə bütün qonşuları ilə qarşılıqlı faydalı münasibətlərə verdiyi əhəmiyyətin göstəricisi hesab edilir.

Azərbaycanın təşəbbüskarı olduğu üçtərəfli əməkdaşlıq formatlarından birincisi Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığıdır. Bu üçlük Cənubi Qafqazdan əlavə, Xəzər-Qara-Aralıq dənizi hövzələrini birləşdirən strateji bölgəni də əhatə edir. Bu üçbucağın formalaşmasının əsasında tarixi və mədəni əlaqələr, coğrafi qonşuluq, vahid tranzit dəhlizinin tərkib hissələri olmaq, birgə iqtisadi əməkdaşlıq üçün əlverişli şərait və siyasi iradə dayanır. Hər üç ölkə bir-birilə strateji tərəfdaşdır. Belə ki, Azərbaycan həm Türkiyə, həm də Gürcüstanla, eləcə də Türkiyə ilə Gürcüstan öz aralarında strateji tərəfdaşdırlar.

Azərbaycan tərəfdaşları və qonşuları ilə münasibətlərdə öz etibarlılığını daim sübut edib.




Diplomatik münasibətlərimizin qurulduğu 25 il ərzində Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığının yaranması iqtisadi maraqlar üzərindən başlayıb və ilk növbədə hər üç ölkənin milli maraqlarına xidmət edir. Hərbi sahədə əməkdaşlığın genişlənməsi isə tərəflərin bir-birinə qarşılıqlı etibarının artmasının göstəricisidir".

Ekspertin sözlərinə görə, regional hərbi məsələlərə gəldikdə isə qeyd etməliyik ki, Türkiyə NATO üzvüdür, Gürcüstan Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalayıb və NATO-ya real namizəddir, Azərbaycan isə heç bir hərbi-siyasi blokda iştirak etmir və bütün tərəflərlə qarşılıqlı, faydalı, bərabərhüquqlu əməkdaşlığa üstünlük verir. Bu fərqli yanaşmalara baxmayaraq, hər üç ölkə müxtəlif sahələr üzrə, xüsusilə hərbi sahədə birgə əməkdaşlıq imkanlarını getdikcə daha da inkişaf etdirir.

**Digər tərəfdən Türkiyənin Qafqazda keçirilən hərbi təlimlərdə iştirak etməsi onun regionda möhkəmlənməsi və nüfuzunun artması deməkdir. Bu isə, istənilən halda, həm Türkiyənin, həm Azərbaycanın, həm də Gürcüstanın strateji maraqlarına uyğundur".**

***Məhəmmədəli QƏRİBLİ***

# Xamneyi ABŞ-ın İranda quruluşu dəyişə bilməyəcəyinə əmindir......

**ABŞ İranda mövcud quruluşu dəyişə bilməyəcək. "Trend"in məlumatına görə, bunu İranın ali lideri Əli Xamneyi deyib.**

O bildirib ki, ABŞ 40 il ərzində İslam Respublikasının öhdəsindən gələ bilməyib:

"Onlar həqiqətən də İranda rejimi dəyişmək məqsədi güdürsə, buna gücləri çatmayacaq. 40 il ərzində ABŞ prezidentləri İran İslam Respublikasını məhv etmək istəyib, amma bacarmayıblar".



# Ermənistanla uydurma "DQR" arasında ziddiyyətə dair yeni aldadıcı "erməni versiyası" - şəxsi düşmənçilik...

**Ermənistandakı daxili vəziyyətin gərgin olduğu hamıya məlumdur. Həmin ölkənin öz KİV-i bunun səbəblərindən biri kimi ölkədəki klan savaşını qeyd edir. Heç kimə sirr deyil ki, hazırda Paşinyanla Ermənistan hakimiyyətinin köhnə rəhbərliyinin təmsil olunduğu və şərti adı "Qarabağ klanı" olan dairə arsında açıq qarşıdurma gedir. Bu ziddiyyət ən açıq formada özünü "DQR" - Ermənistan münasibətlərində də büruzə verir.**



## ”Hakimiyyət uğrunda aktiv mübarizə gedir”

### *Elşən Mustafayev: ”Vəziyyət heç də daşnakın dediyi kimi bəsit deyil”*

Artıq hiss olunur ki, Ermənistanın daxilində yaranmış vəziyyətlə bağlı ciddi narahatlıq meydana çıxıb. Daşnak Partiyasının funksionerlərindən olan Kiro Manoyan jurnalistlərə açıqlamasında bildirib ki, buradakı vəziyyətin gərgin olduğunu bir qədər də KİV şişirdib: "Bundan Azərbaycan maksimum yararlana bilər. Hesab edirəm ki, bu məsələdə Ermənistanla "DQR" arasında elə bir ciddi fikir ayrılığı yoxdur. Ziddiyyətin dərinləşməsi daha çox da hər iki tərəfin liderlərinin bir-birinə qarşı bəslədiyi düşmənçilik hissi ilə bağlıdır".

Göründüyü kimi, erməni siyasətçi maksimum dərəcədə yaranmış qarşıdurmanı malalamağa çalışır. İrəli sürülən versiyanı nə dərəcədə əsaslı saymaq olar?

**Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev qəzetimizə bildirdi ki, bu məsələdəki ziddiyyət yalnız şəxsi ambisiyalara bağlı olan məsələ deyil:** "Söhbət hakimiyyət davasından gedir. Artıq Ermənistanın daxili rəyində hiss edirlər ki, qarşıdurma dərinləşir və bu vəziyyət onlar üçün acı nəticələrə apanb çıxara bilər. Ona görə də məsələni bir qədər bəsitləşdirməyə çalışırlar. Bu, bir klan savaşıdır. Özü də hakimiyyət uğrunda gedən antoqonist bir mübarizədir. Paşinyan həmin klanın hakimiyyətdə olduğu dönəmdə həbs edilib. Sonra inqilab edərək onu həbs edən hakimiyyəti devirib. İndi "köhnə qvardiya" öz gücünü səfərbər edərək onu hakimiyyətdən salmağa çalışır. Bəllidir ki, bu ziddiyyətlər öz kulminasiya nöqtəsinə "DQR"in sabiq və yeni liderləri Arkadi Qukasyan və Bako Saakyanın Ermənistanın ikinci prezidenti Robert Köçəryana zamin durması və onun azad olunması üçün lazım olan girovu ödəməsindən sonra çatdı. Həmin hadisədən sonra məlum oldu ki, mübarizənin arxasında açıq şəkildə "DQR"dəki qondarma rejim durur. Hətta tərəflər arasındakı gərginlik o həddə çatıb ki, tərəflər bir-birinin ünvanına işğal altında olan torpaqları Azərbaycana geri qaytara biləcəyini vurğulayır.

Ermənistanın Baş naziri Nikol Paşinyan bəyan edib ki, onun hakimiyyətə gəlişinə qədər Qarabağ "rəhbərliyi" danışıqlar masasında nəyin müzakirə olunduğundan xəbərsiz olub və münaqişənin nizamlanması üzrə sənədlə tanış olmayıb.

Baş nazir bildirib ki, məhz o, qondarma rejimin "rəhbərliyinə" danışıqlar paketini təqdim edib.

O, əlavə edib ki, qondarma rejimin"rəhbərliyinin" və Ermənistanın sabiq rəhbərliyinin dost olmasına və birlikdə rəqs etməsinə baxmayaraq, Xankəndi danışıqlar prosesindən xəbərsiz olub.

Bütün bu açıqlamalar onu deməyə əsas verir ki, Paşinyan köhnə klanın nümayəndələrinin xalqın müqəddəratından uzaq işlərlə məşğul olduqlarını bildirir.

Qarşı tərəf də analoji məzmunlu ittihamları Paşinyana ünvanlayır. Deməli, vəziyyət heç də daşnakın dediyi kimi bəsit deyil. Burada hakimiyyət uğrunda aktiv mübarizə gedir. Sadəcə, ermənilər artıq bu ziddiyyətdən Azərbaycanın bəhrələnə biləcəyindən dərin narahatdırlar. Bu səbəbdən də mövzudan saxta versiyalarla yayınmağa çalışırlar. Bunları əsaslı saymaq olmaz".

***Məhəmmədəli QƏRİBLİ***

# Oman körfəzində 4, Hörmüz boğazında 2 tankerə hücum edildi, bir tanker batırıldı




**Oman körfəzində Britaniya ordusuna bağlı Birləşmiş Krallıq Dəniz Ticarəti Əməliyyatları Qurumuna aid xam neft daşıyan, Marşal adaları bayrağı ilə üzən "Front Altair" və Panama bayrağı ilə üzən "Kokuka Courageous" adlı tankerlerdə partlayış baş verib.**

Baki-xeber.com xəbər verir ki, partlayışlardan sonra gəmilərdən biri - "Front Altair" batmağa başlayıb.

Olaydan dərhal sonra tankerlərdəki bütün personal təxliyə edilib. Partlayışın səbəbi hələlik bilinmir.

Tayvan mərkəzli CPC eyni bölgədə onlara aid bir tankerin bilinməyən bir cisim tərəfindən vurulduğunu açıqlayıb.

Bundan başqa, Norveçin "Frontline" şirkətinə aid bir başqa tanker Fuceyra sahillərində torpedo hücumuna məruz qalıb.

Yaponiya İqrisadiyyat Nazirliyi də Yaponiyaya yük daşıyan iki neft tankerinin Hörmüz boğazı yaxınlığında hücuma məruz qaldığını açıqlayıb.

# Türkiyəni F-35 proqramından çıxarmaqla təhdid edən ABŞ bu dəfə başqa bir problemlə üzləşdi



### *ABŞ-ın başqa ölkələrin F-35-lə uçuş əməliyyatları barədə daha çox məlumat əldə etməsi narazılıq doğurdu, iki ölkə proqramdan çıxa bilər*

**Rusiya S-400 sistemlərinə görə, Türkiyəni F-35 proqramından çıxarmaqla təhdid edən ABŞ bu dəfə başqa bir problemlə üzləşib.**

Baki-xeber.com xəbər verir ki, ələ keçirdiyi bəzi F-35 sənədlərinə istinadən məlumat yayan "Defence News" saytı hələlik adları açıqlanmayan iki ölkənin F-35 proqramından çıxarmaq istədiyini yazır.

Sayt iddia edir ki, bunun səbəbu F-35 döyüş təyyarələrində istifadə edilən Avtomatik Logistik Məlumat Sistemilə (OLBS) bağlıdır.

Bu proqramın ABŞ-a daha çox məlumat əldə etmək imkanı verməsi narahatlıqla qarşılanır.

**Bu sistem, dünyanın aparıcı silah istehsalçılarından biri, F-35-lərin əsas istehsalçı şirkəti olan "Lockheed Martin" tərəfindən təyyarələrin uçuşu, uçuş davamlılığı, tapşırıqların planlaşdırılması və ehtiyat hissələrin sifarişi, texniki məlumatlar kimi bir sıra əməliyyatlar çərçivəsində istifadə olunur.**

Məlumata görə, proqramdan çıxmaq istəyən ölkələrin narahatlıqları da elə bununla bağlıdır. İki ölkə bu çərçivədə ABŞ və "Lockheed Martin" şirkətinin əldə etdiyi məlumatların "gizli bir gündəmə çevrilməsindən" narahatdırlar.

**Bu ölkələr xüsusilə, uçuş əməliyyatları və ya əməliyyat məlumatlarının sözügedən bazada toplanmasına qarşı çıxırlar.**

**Avropa Şurasının baş katibi Torbyorn Yaqland Ermənistanın Baş naziri Nikol Paşinyana məktub göndərib. Sözügedən məktubda Avropa Şurası tərəfindən Paşinyanın məhkəmə islahatları ilə bağlı təşəbbüsləri, səyləri yüksək qiymətləndirilib: "Biz sizin korrupsiyaya qarşı mübarizə üçün səylərinizi artırmağınızı, həmçinin, Ermənistan Konstitusiyasına və beynəlxalq öhdəliklərə uyğun olaraq məhkəmə sisteminin islahatını və yenidən qurulması zəruriliyini qiymətləndiririk".**



# Paşinyanın məhkəmələri cəza alətinə çevirən "islahatlarına" Avropa Şurasının baş katibindən inanılmaz dəstək...

## *Ramil Hüseynov: "Paşinyanın məqsədi odur ki, məhkəmələr onun hakimiyyətinin diqtəsi ilə fəaliyyət göstərsinlər"*

Məktubda o da qeyd edilib ki, hərtərəfli və perspektivli bir məhkəmə islahatı üçün sürətli və həlledici bir strategiya hökumətin qanuni məqsədlərini, qanuni olaraq yerinə yetirəcək: "Hökumətin islahatı üçün sürətlə və qətiyyətlə tətbiq olunan hərtərəfli və perspektivli bir strategiya hökumətin qanuni məqsədlərini düzgün yerinə yetirəcək. Oxşar strategiya isə islahatlara olan inamı və beynəlxalq yardımın davamını təmin edəcək. Avropa Şurası aktivliklə həmin islahatların həyata keçirilməsində iştirak etməyə hazırdır".

Ermənistanda hansı məhkəmə islahatlarından söhbət gedə bilər ki, bu günlərdə Paşinyan cəmiyyəti məhkəmələrə qarşı, onların fəaliyyətini iflic etməyə çağırdı. Açıq-aşkar məhkəmələri təhdid edərək bildirdi ki, vətəndaşların haqlarını pozan qərarlar verən bütün hakimlər qovulmalıdır. Həmçinin, hazırkı məhkəmələri əvvəlki korrupsiyalaşmış sistemin qalığı olmaqda ittiham etdi. Paşinyan, əslində, bununla məhkəmələrin müstəqil fəaliyyət göstərməsinə deyil, ondan asılı olmasına səy göstərir. Onun bununla bağlı aparmaq istədiyi "islahatlar", əslində, məhkəmələrin mövcud hakimiyyətin cəza alətinə çevrilməsini özündə ehtiva edir. Yəni icraedici hakimiyyətdən asılı olan bir quruma çevrilsin və onun sifarişləri ilə işləsin. Təəssüflər olsun ki, bütün bunları görməzdən gələn Yaqland Paşinyana dəstək verdiyini bəyan edir.

Yeri gəlmişkən onu da qeyd edək ki, Yaqland Azərbaycana qarşı mənfi mövqedən yanaşan şəxsdir. Bütün hallarda, AŞ baş katibinin Ermənistanla bağlı bu yanaşmasını ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynov Yaqlandın məktubunun reallığı əks etdirmədiyini bildirdi:** "Paşinyanın gördüyü işlərə islahat adı vermək özü tamamilə gülünc yanaşmadır. Ən azından ona görə ki, ortadakı real nəticəyə baxmaq lazımdır. Ermənistanda məhkəmələrin əvvəlki hakimiyyətin siyasi iradəsinə xidmət etdikləri sirr deyil. Məhkəmələr hakimiyyətin konyukturasına görə fəaliyyət göstəriblər. Ancaq bir il əvvəl Paşinyan hakimiyyətə gələndən sonra istədi ki, məhkəmələr onun iradəsinə uyğun fəaliyyət göstərsinlər. Sadəcə, komandası yetərli olmadığı üçün, məhkəmələri əvəzləyə bilmədi. Ondan sonra "islahat" adı altında hər vasitə ilə məhkəmələrin müstəqil fəaliyyət göstərməsini məhdudlaşdıran addımlar atmağa başladı. Eyni zamanda, məhkəmələri pressinq etdi və bu minvalla onları təzyiq altında saxlayır. Sabiq prezident Köçəryanın həbsdən azad edilməsindən sonra isə Paşinyan açıq şəkildə məhkəmələrin üzərinə hücuma keçdi. Hansı ki, bu, açıq-aydın icraedici hakimiyyətin məhkəmələrin işinə müdaxilə etməsi demək idi. Ən başlıcası isə bütün bunlarda Paşinyanın məqsədi odur ki, məhkəmələr onun hakimiyyətinin diqtəsi ilə fəaliyyət göstərsinlər. Ancaq, göründüyü kimi, Yaqland nümayişkəranə şəkildə bunları görmək istəmir. Fikrimcə, Yaqlandın məktubu sırf siyasi motivlərə söykənir. O mənada ki, Rusiyapərəst klan Paşinyan hakimiyyətini devirməsin. Yoxsa ortada islahat deyilən bir şey yoxdur. Eyni zamanda, məhkəmələrin müstəqilliyinə xidmət edən siyasi iradə də mövcud deyil".

*"Ancaq Yaqland nümayişkəranə şəkildə bunları görmək istəmir"*

***Vidadi ORDAHALLI***

---

**Türkmənistan xarici işlər naziri Rəşid Mərədov bildirib ki, Türkmənistanda keçiriləcək I Xəzər İqtisadi Forumuna hazırlıq işlərinə başlanıb. O, ötən il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində keçirilən V Xəzərsahili Ölkələri Sammitində imzalanan müxtəlif sahələrdə əməkdaşlığa dair sənədlər arasında Türkmənistanda VI Xəzər Sammitinin, 2019-cu ildə isə I Xəzər İqtisadi Forumunun keçirilməsi barədə sənədin olduğunu xatırladıb.**




# Qarabağda müharibə risqi və Xəzərin iqtisadi potensialları üzərində düşünən dövlətlərə mesaj...

## *Elşən Həsənov: "Ermənilərin məhz Xəzərdə törətdikləri terror aktları yaddan çıxmayıb"*

Nazir bununla bağlı yaradılan təşkilat komitəsinin birinci iclasında forumun Xəzər Günü - avqustun 12-də Avazə Milli Turizm Bölgəsində keçirilməsilə bağlı təklifləri irəli sürüldüyünü diqqətə çatdırıb. Məlumdur ki, sözügedən tədbirdə əsasən Xəzərin resurslarından səmərəli istifadə ətrafında müzakirələr aparılır. Xüsusilə də Xəzərin hüquqi statusu ilə bağlı imzalanan Konvensiyadan sonra dənizin resurslarından istifadə və bu işə başqa ölkələri də cəlb etməklə bağlı yaxşı şərait yaranıb. Ancaq başqa bir problem bundan ibarətdir ki, region və xüsusilə də Xəzər hövzəsi üçün potensial təhlükə mənbəyi sayılan Dağlıq Qarabağ problemi öz həllini hələ də tapmayıb. Belə olan təqdirdə, Xəzərin iqtisadi potensialının tam üzə çıxarılması və ondan davamlı şəkildə istifadə nə dərəcədə mümkündür?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov qəzetimizə bildirdi ki, Dağlıq Qarabağ probleminin həll edilməmiş, yəni konservləşmiş şəkildə saxlanması bütün regionun təhlükəsizliyi üçün təhdiddir:** "Biz bunu dəfələrlə demişik. Xəzərin resurslarının istismarı böyük layihələrin icrası nəticəsində mümkün ola bilər. Bu cür qlobal layihələrin həyata keçirilməsi üçün isə təbii ki, bir sıra şərtlərin olması önəmlidir. Onlardan ən birincisi təhlükəsizlikdir. Bu amil olmasa, hər hansı bir iqtisadi uğurdan, ciddi işlərin həyata keçirilməsindən danışmaq olmaz. Aktauda Xəzəryanı ölkələrin liderlərinin sammiti çərçivəsində imzalanmış Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyadan sonra bu məsələ daha aktuallıq kəsb etməyə başladı. Təbii, ilk önə çıxan məsələ Dağlıq Qarabağ məsələsinin nizamlanması ilə bağlıdır. Yəqin ki, ermənilərin məhz Xəzərdə törətdikləri terror aktları yaddan çıxmayıb. İllər əvvəl Türkmənistandan Azərbaycana sərnişinləri daşıyan mülki bərədə erməni terror aktlarını da, Xəzər dənizi regionunda digər təhdidləri də xatırlayırıq. Təbii ki, dondurulmuş şəkildə saxlanan Qarabağ münaqişəsi inteqrasiya proseslərinin inkişafı üçün maneədir. Heç kim zəmanət verə bilməz ki, işğalçı Ermənistanın həmin layihələri də sıradan çıxarmaq, onlarla bağlı diversiyalar törətmək kimi planları ola bilməz. Bu səbəbdən də beş Xəzəryanı ölkə Xəzər regionunda təhlükəsizliyin qorunmasında xüsusi maraqlı olmalıdır. Bu, iqtisadi layihələrin həyata keçirilməsini şərtləndirən vacib faktordur. Hesab edirəm ki, Azərbaycan nümayəndə heyəti Türkmənistandakı toplantıda bu məsələni xüsusilə ciddi qabartmalıdır".

*"Azərbaycan nümayəndə heyəti Türkmənistandakı toplantıda bu məsələni xüsusilə ciddi qabartmalıdır"*

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan-Türkiyə-Gürcüstan hərbi üçbucağının Ermənistanda yaratdığı böyük sual - təlimlər nə məqsədlə keçiriləcək...

**Azərbaycan və Türkiyənin son aylarda keçirdikləri hərbi təlimlərin Ermənistanda böyük ajiotaj yaratması artıq heç kimə sirr deyil. Elə bundan irəli gəlir ki, birgə təlimlər başa çatsa da, onun nəticələri hələ də işğalçı ölkədə geniş müzakirə predmetidir. Amma hadisələrin son inkişaf axarı Ermənistanın narahatlığının daha da artacağını göstərir.**

Əsas səbəb budur ki, Azərbaycan və Türkiyə bu dəfə Gürcüstanı da öz sıralarına qoşmağa hazırlaşır. Artıq bu məsələ indidən Ermənistanda yeni xof yaradıb.

İşğalçı ölkədə hesab edirlər ki, Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin Qəbələ görüşünün nəticələri Ermənistan üçün heç də yaxşı olmayacaq. Bu barədə danışmazdan öncə qeyd edək ki, Azərbaycan, Türkiyə və Gürcüstan Qəbələ görüşündən razılıq edir. Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov bu xüsusda qeyd edib ki, digər sahələrdə olduğu kimi, müdafiə sahəsində də üç qonşu və dost ölkə əməkdaşlığı uğurla davam etdirir: "Keçən il Türkiyədə memorandum imzalandı. Həmin memoranduma uyğun olaraq bizim üçtərəfli formatda görüşlərimizin hüquqi bazası yarandı. İl ərzində üçtərəfli əməkdaşlığın planında olan məsələlərin icrası müzakirə olunub. Hər üç tərəf Türkiyənin terrorizmlə mübarizəsini dəstəkləyir. Görüşdə, həmçinin, Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyü dəstəkləndi. Hərbi sahədə əməkdaşlıqla bağlı görülmüş işlər müzakirə olundu. Onu da qeyd etmək istəyirəm ki, hərbi əməkdaşlıqda birgə təlimlər xüsusi rol oynayır. İlbəil birgə təlimlərin sayı artır. Məsələn, 2018-ci ildə Türkiyə ilə birdə yeddi təlim keçirilib. 2019-cu ildə isə 13 birgə təlimin keçirilməsi planımızda var. İlin sonuna kimi bunların hamısı icra olunacaq". Nazir vurğulayıb ki, artıq birgə təlimlərə gürcü tərəfi də qatılacaq: "Görüşdə biz Gürcüstan tərəfini də bu təlimlərə qatılmağa dəvət etdik. NATO xəttilə Azərbaycan-Türkiyə-Gürcüstan təlimləri də Gürcüstanda həyata keçirilib. Həmçinin Gürcüstanda dağ təlim mərkəzində çox uğurlu təlimlər icra olunub. Hər üç tərəf bu təlimlərin uğurla həyata keçirilməsinə razılıq verib və təlimlərin davam etdirilməsinə dair qərar qəbul olunub". Z.Həsənov bildirib ki, hərbi əməkdaşlıqda birgə təlimlər xüsusi rol oynayır.



Bunlarla yanaşı, Türkiyənin milli müdafiə naziri Hulusi Akarın açıqlamaları da xüsusi diqqət çəkir. Onun sözlərinə görə, qarşıdakı dövrdə tərəflər arasındakı əlaqələr müdafiə və təhlükəsizlik sahəsi ilə məhdudlaşmayacaq, digər sahələri də əhatə edəcək: "Türkiyə, Azərbaycan və Gürcüstanın koordinasiyalı şəkildə əməkdaşlığı çox önəmlidir. Üç ölkənin yerləşdiyi bu region, hamiya bəlli olduğu kimi, neft və təbii qaz kimi enerji qaynaqlarının dünyaya çatdırılması üçün çox ciddi əhəmiyyətə malikdir. Bu baxımdan regionda beynəlxalq güclərin maraqları toqquşur. Türkiyə, Azərbaycan və Gürcüstanın koordinasiyalı şəkildə bir yerdə əməkdaşlıq edərək çalışması çox önəmlidir". Türkiyəli nazirin sözlərinə görə, işbirliyi müdafiə, hərbi və təhlükəsizlik mövzuları ətrafında olmaqla üç ölkənin maraqlarına xidmət edir: "Əməkdaşlıq hər il daha da möhkəmlənir və genişlənir. Mən inanıram ki, əlaqələrimiz yalnız müdafiə, hərbi və təhlükəsizlik deyil, eyni zamanda bütün sahələri əhatə edəcək. Bu əlaqələr digər ölkələr üçün də ciddi önəm daşıyacaq. Ölkələrimiz arasında müdafiə sahəsində imzalanan müqavilələrin yaxın gələcəkdə nəticələrini görəcəyik".

Gürcüstanın müdafiə naziri Levan İzoriya da qarşılıqlı əməkdaşlığın inkiaşfından razı qaldıqlarını bildirir. Nazir Gürcüstan-Azərbaycan və Gürcüstan-Azərbaycan-Türkiyə formatı çərçivəsində müdafiə sahəsində fəal əməkdaşlığın olduğunu qeyd edib. Məhz bütün bunlar fonunda Ermənistanda ciddi narahatlıq duyulur ki, Bakı ilə Ankara Tiflisi də öz yanlarına çəkir və belə vəziyyət İrəvanın regionda daha da təklənməsinə gətirib çıxaracaq. Erməni hərbi ekspert Taron Ovannisyan bu xüsusda qeyd edir: "Ümid edirik ki, Gürcüstan Türkiyə və Azərbaycanın ortaq təlimlərində iştirak etməyəcək. Gürcüstan əvvəllər də Türkiyə və Azərbaycanın təlimlərində iştirak edib. Bu təlimlər xüsusi təyinatlı qüvvələr üçün olub, amma energetika infrastrukturunun təhlükəsizliyinin təmininə hədəflənən təlimlər də keçirilib. Bu məntiqlidir, çünki Azərbaycandan Türkiyəyə gedən neft kəmərləri Gürcüstandan keçir. İndiki məqamda Gürcüstanın hansı təlimdə iştirak edəcəyini və burada hansı ssenarinin əsas götürüləcəyini müəyyən etmək çətindir. Yəqin ki, söhbət daha böyük təlimdən gedir. Ümid edirəm ki, Gürcüstan gələcəkdə Ermənistanın maraqlarına xidmət etməyən Türkiyə-Azərbaycan təlimlərində iştirak etməyəcək. Amma etsə, bu, Ermənistan üçün yaxşı heç nə vəd etmir, regionda mövqeyimizi daha da zəiflədir".

Ekspertlər isə həm də ona diqqət çəkir ki, Qəbələdəki ikitirəfli və üçtərəfli görüşlər həm də digər parametrlər baxımından vacibdir. Çünki bununla rəsmi Tiflis Azərbaycanla strateji münasibətlərə daha çox diqqət yetirir, bu əməkdaşlığa xələl gətirən addımlardan çəkinir. Belə vəziyyətdə Azərbaycan - Gürcüstan münasibətlərinə xələl gətirmək istəyən məkrli qüvvələr də niyyətlərinə çatmır. Eyni zamanda, Tiflisin Azərbaycan və Türkiyə ilə artan hərbi əməkdaşlığı Gürcüstanın özünə də lazımdır və onun maraqlarına xidmət edir. Deməli, belə vəziyyətdə gürcü tərəfi Azərbaycan və Türkiyə ilə daha çox yaxınlaşacaq. Məhz bu da Ermənistanın regionda mövqelərini əhəmiyyətli dərəcədə sarsıdır. Elə bu səbəbdən İrəvan Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlığın inkişafından getdikcə daha böyük əndişə duyur.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Ermənilər daxil, bir neçə ölkə politoloqlarının ortaq rəyi - Paşinyanın konkret Qarabağ strategiyası yoxdur

**Ermənistanın hələ də Dağlıq Qarabağ münaqişəsi ətrafında sərgilədiyi mövqe konfliktin dinc müstəvidə həllinə olan bütün ümidləri getdikcə daha sürətlə aradan qaldırır. Belə görünür ki, düşmən ölkədə, əslində, Qarabağ münaqişəsinin həllinə hesablanmış real yanaşma yoxdur və bu da hərbi həll yolunu tətikləyən başlıca amillərdən biri sayılır.**

Elə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da Ermənistan rəhbərliyinin son bəyanatlarına və cəbhə xəttində törədilən qanlı təxribatlara toxunaraq, belə məsuliyyətsiz davranışın danışıqlar prosesinə ciddi xələl gətirdiyini vurğulayır. Azərbaycanın danışıqlar prosesində mövqeyinin dəyişilməz olduğunu vurğulayan nazir işğal edilmiş ərazilərimizdən Ermənistan silahlı qüvvələrinin çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına geri qayıtmasının danışıqların təməlini təşkil etdiyini söyləyir. Lakin Ermənistanın bu məsələdə real yanaşma tərzi sərgiləməməsi müharibə ehtimalını artırır.

Əslində, Ermənistanın özündə də belə bir fikir getdikcə daha çox hakim olmağa başlayır ki, Nikol Paşinyan iqtidarının Qarabağ məsələsində dəqiq yanaşmalarının yoxluğu savaşın yenilənməsindən başqa heç nəyə xidmət etmir. Məsələn, erməni ekspert Karen Vrtanesyan bu xüsusda bildirir: "Paşinyan hakimiyyətinin yanlış siyasəti üzündən Qarabağa qarşı mövqelərimiz getdikcə zəifləyir". Vrtanesyan son zamanlar ordumuz tərəfindən həyata keçirilən genişmiqyaslı hərbi təlimlərin də burada öz sözünü dediyini etiraf edir. O qeyd edib ki, bu təlimlərə paralel olaraq cəbhə xəttində vəziyyət getdikcə gərginləşir: "Bu vəziyyətdə bizim daxili zəifliklərimiz var və Qarabağa qarşı mövqelərimiz getdikcə zəifləyir. Bu durumda Azərbaycan Qarabağ məsələsində hədəfinə çatacaq".

Respublika Partiyasının sədr müavini Armen Aşotyan isə daha açıq danışaraq vurğulayır ki, Paşinyanın Qarabağ münaqişəsi ilə bağlı strategiyası yoxdur. Onun sözlərinə görə, Paşinyan Qarabağ məsələsində danışıqlardakı məsuliyyətdən qorxur: "O, müharibədən qorxur və doğru edir. Çünki istənilən ağıllı adam müharibəni istəmir. Lakin bu qorxu ilə yanaşı o, Ermənistanın üzləşdiyi çağırışlara layiq, daxili və xarici siyasət həyata keçirilməsi üçün addımlar atmır. O, ölkə daxilində və xaricində reallıqla əlaqəsini itirib. Onun yanında elə bir insan yoxdurmu ki, üzünə həqiqətləri desin, izah etsin, razı salsın, nəhayət təkid etsin?" Aşotyan qeyd edib ki, Ermənistanla Qarabağdakı rejim arasındakı hərbi-siyasi çat çoxsaylı təhlükələrlə doludur və bu uçurum Paşinyan hakimiyyəti hesabına yaranıb. Bütün bunlar isə, Aşotyana görə, Qarabağda yeni savaş üçün əlverişli şərait yaradır. Digər ekspertlər də vurğulayır ki, indiki durumda Ermənistan işğalçı siyasəti ilə həm özünün, həm də ümumən bölgənin inkişafı üçün əsas əngəl olaraq qalır. Təəssüf ki, Ermənistan və onun rəhbərləri bir-birini əvəz eləsə də, öz xalqının əzab-əziyyətini görsələr də, Azərbaycan torpaqlarının işğalına son qoymağa tələsmirlər. Halbuki, onlara da yaxşı məlumdur ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT qətnamələrinə uyğun şəkildə həll oluna bilər. Amma bu reallığa uyğun addımlar atılmaması, əksinə, məsələnin dinc həllinə yeni əngəllər yaradılması Ermənistanın yeni savaşa şərait yaratmasından başqa heç nəyə xidmət etmir. Bunu rus ekspert Stanislav Tarasov da təsdiq edir: "Düşənbə və onun ardınca davam edən görüşlər, sərhəddəki sakitlik Azərbaycanın istəyi üzərində qurulmuşdu. Məqsəd Ermənistanın yeni hakimiyyətindən danışıqlar masasında güzəşt əldə edilməsi olub. Amma Ermənistan hələ də istənilən mövqeni sərgiləmir. Düzdür, bağlı qapılar arxasında nə müzakirə edildiyindən xəbərimiz yoxdur. Biz bilmirik ki, danışıqlar zamanı tərəflər mövqelərini necə dəyişir və ya formalaşdırır, hansı məqamlardan söhbət aparılır, xəbərimiz olmadığından da, hazırda məntiqli bir nəticə çıxarmağa çətinlik çəkirik. Çünki son açıqlamalardan, xüsusən də cəbhədə baş verənlərdən sonra belə məlum olur ki, tərəflər hələ də ortaq məxrəcə gələ bilməyib. Azərbaycan tərəfinin açıqlamalarından bəlli olur ki, bunun məsuliyyəti erməni tərəfinin üzərinə düşür. Vəziyyətin indiki şəkildə davam etməsi isə müharibənin başlanma ehtimalını yüksəldir. Hamıya məlumdur ki, müharibə yolu ölkələr və bölgə üçün nəzərdə tutulmayan itkilərə gətirib çıxarır. Buna görə də Azərbaycan danışıqlar yolu ilə irəliləməyi qərara alıb. Amma görünən budur ki, Ermənistanın belə mövqeyə alternativ yanaşması yoxdur. Hazırda danışıqlar prosesinin məntiqi onu deməyə əsas verir ki, real gözləntilər yoxdur. Danışıqlarda müəyyən proses hökm sürür və fəal təhlükəli cəbhə xətti mövcuddur. Yarımmüharibə şəraitində istənilən səbəb münaqişə tərəflərindən birinə fürsət kimi faydalı ola bilər. Bunu Ermənistan mütləq nəzərə almalıdır. Çünki Azərbaycanın kifayət qədər güclü ordusu var". Bütün bunlar fonunda aydın görünür ki, Ermənistanın siyasi rəhbərliyi çox çətin və ziddiyyətli vəziyyətə düşüb. O, atdığı addımlarla bir tərəfdən Qarabağ münaqişəsinin hərbi həllini tətikləyir, digər tərəfdən isə döyüş meydanında Azərbaycana məğlub olacağını yaxşı başa düşür. Çünki Azərbaycan bütün sahələrdə, o cümlədən ordu quruculuğunda Ermənistandan dəfələrlə irəlidə olduğunu əyani göstərib. Bu, həm yeni silahlarla təminatda, həm də məşhur aprel və Naxçıvan döyüşlərində özünü göstərdi. Hər iki döyüşdə Azərbaycan ordusu hərbi-texniki, strateji və taktiki baxımdan Ermənistandan xeyli güclü olduğunu sübut etdi. Bu məqamlar Ermənistan rəhbərliyinə anlatdı ki, artıq hərbi gücə arxalanmaq mümkün deyil və istənilən anda Azərbaycan Ermənistanı məhv edə bilər. İkincisi, Azərbaycan xarici siyasətdə də o dərəcədə uğurludur ki, hətta Ermənistanla eyni hərbi-iqtisadi blokda təmsil olunan dövlətlər belə onu müdafiə edir. Rusiya, Belarus və Qazaxıstanın prosesə yanaşması da qeyd edilənlərin əyani təsdiqidir. Amerika və Avropa ölkələri də Azərbaycanla əməkdaşlığa çox ciddi münasibət göstərir. Buradan aydın görünür ki, Cənubi Qafqazda artıq lider dövlət kimi Azərbaycan Qarabağ məsələsində beynəlxalq münasibətlər sistemində maraqlarına cavab verən şərait yaradıb. Bu durumda Ermənistanın daha sürətlə tənəzzülə və xaosa yuvarlanması işğalçı ölkəni çətin duruma salır. İndi belə vəziyyətdə cəbhədə təxribatlara getməklə Ermənistan əslində üzləşdiyi xaosun daha da böyüməsinə səbəb ola bilər. Elə bu səbəbdən xəbərdarlıq edilir ki, yaranmış vəziyyətdə cəbhədə vəziyyəti gərginləşdirmək İrəvan üçün heç də münasib deyil. Buna indi beynəlxalq ictimaiyyət də Ermənistan üçün münasib olmayan reaksiya verir. Rusiyalı politoloq Qriqori Trofimçuk da hesab edir ki, yaranmış vəziyyətdə Ermənistan üçün ən yaxşı yol danışıqlar masasında real addımların atılması və bununla müharibə təhlükəsini aradan qaldırmaqdır: "Bunu vasiətçilər, o cümlədən Rusiya da istəyir. Konkret Rusiya tərəfinin Qarabağ nizamlanması üzrə mövqeyi artıq bəllidir. Belə ki, Kremlin İrəvana nə təklif elədiyindən danışsaq, prinsipcə, bu təkliflər çoxdan məlumdur. 2016-cı ildəki aprel müharibəsinin yekununa dair müvafiq sammitlərdə qərarlar qəbul edilib, müstəsna olaraq diplomatiya və danışıqlardan istifadə eləməklə onları yerinə yetirmək lazımdır. Burada yeni heç nə yoxdur". Politoloq vurğulayır ki, bu şəraitdə İrəvan mütləq güzəştə getməlidir.

Amma onun sözlərinə görə, hələ də yanlış mövqe sərgiləyən Paşinyan Qarabağ məsələsində güzəştə getməyə açıq-aşkar hazır deyil: "Düşünürəm ki, Rusiya da daxil, danışıqlar prosesinin bütün tərəfləri özləri üçün bu faktı qeyd edirlər ki, Paşinyan sülh prosesinin gedişini və mahiyyətini öz xeyrinə dəyişmək istəyir. Ona görə, fikirləşmək ki, bu cür davam edəcək, sadəlövhlük olardı". Politoloqa görə, N.Paşinyan Azərbaycanı bilərəkdən yeni müharibəyə təhrik etmək üçün əlindən gələn hər şeyi edib və Bakıya mesaj verib ki, torpaqları heç bir şərtlə qaytarmağa hazırlaşmır: "Hamı anlayır ki, Qarabağ danışıqlarının real nəticəsi yoxdur. Qarabağda böyük müharibə baş versə, bu artıq lokal olmayacaq, partlayış bütün regionu bürüyəcək. Özü də maraqlıdır ki, Ermənistan belə addımları Azərbaycanın kifayət qədər gücləndiyi bir vaxtda atır". Ekspertlər xəbərdarlıq edir ki, belə yanaşma Ermənistanın Qarabağ məsələsində intiharı da sayıla bilər. Çünki məhz yeni Qarabağ savaşının başlanması Ermənistanın çöküşünü qaçılmaz hala gətirəcək. Bütün bunların qarşısını yalnız Ermənistanın işğal altındakı torpaqları azad eləməyə başlaması ala bilər. Amma təəssüf ki, İrəvan hələ də məsələyə sağlam məntiqlə yanaşa bilmir. Bununla bağlı ukraynalı ekspert Vitali Portnikovun fikirləri olduqca diqqət cəlb edir: "Ermənistanda problemlərin əsas səbəbi heç də hansısa klanın hakimiyyəti və korrupsiya deyildi. Klanların hakimiyyəti və korrupsiya, təbii ki, pisdir. Amma reallıqda Ermənistanın düşdüyü vəziyyət Qarabağ münaqişəsinə görədir. Qarabağ problemi Ermənistanın boynuna atılmış ilgəkdir və ona nəfəs almağa imkan vermir.

Lakin ən pisi odur ki, erməni dövləti bu ilgəyi xəfiflətmək əvəzinə, onu bir az da sıxır". Bütün bunlar bir daha təsdiq edir ki, Ermənistanın Qarabağ siyasətində dəyişiklik olmasa, düşmən ölkə bununla məhvini daha da sürətləndirəcək. Hər halda, bu xüsusda Ermənistana artıq çoxsaylı xəbərdarlıqlar da edilir. İndi seçim erməni tərəfinindir. Düşmən ölkə intihara bərabər Qarabağ siyasətini davam etdirsə, Azərbaycanın güc yolu ilə düşməni məhv etməsi qaçılmaz olacaq. Bunu önləmək üçün Ermənistanın yeganə çıxış yolu danışıqlar masasında real iradə nümayiş etdirib, artıq məsələnin həllinə yönəlik əməli addımlar atmaqdır. Əks təqdirdə düşmən sərt zərbələrə hazır olmalıdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ermənilərin Qarabağda dağıtdıqları mədəniyyət irsimiz beynəlxalq sərgidə...

***Faiq İsmayılov:** "Ermənistan işğal altında saxladığı Azərbaycan ərazilərində müxtəlif əsrlərə aid olan daşınmaz tarix və mədəniyyət abidələrini, digər kateqoriyadan olan daşınan mədəni irs nümunələrini dağıtmaq, yox etmək kimi qanunsuz fəaliyyət həyata keçirir"*

**Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan torpaqlarında ermənilər saysız vandalizm aktı törədiblər. Ermənilərin Dağlıq Qarabağ və ətraf rayonlarda abidələrimizə qarşı həyata keçirdikləri vəhşiliklər ölçüyəgəlməzdir. Abidələrimizi dağıtmaqla, muzeylərimizi, rəsm qalereyalarımızı məhv etməklə kifayətlənməyən ermənilər hətta toponimlərimizə qarşı da saxtalaşdırma kampaniyası aparıblar.**

Şəhərlərimizin, rayonlarımızın, qəsəbə və kəndlərimizin, yer-yurd, dağ-çay adlarımızın "erməniləşdirilməsi" prosesi baş verib. Bütün bunlar dünyanın, beynəlxalq qurumların gözü qarşısında baş verib. Lakin hələ də bu məsələyə heç bir səviyyədə sərt reaksiya verilməyib. O da məlumdur ki, ermənilər işğal altında olan Azərbaycan şəhər və kəndlərində turizm obyektləri açır, qanunsuz olaraq bura xarici turistlər cəlb edirlər. Azərbaycanın tükənməz sərvəti olan təbii mineral sular ermənilər tərəfindən dünya bazarlarına daşınır. Azərbaycanda keçirilən müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycanın işğal altında olan ərazilərinin taleyi də daim müzakirə mövzusuna çevrilir. Erməni vandalizmi bu tədbirlərdə qeyd edilir.

Beynəlxalq Memarlar İttifaqının və Azərbaycan Memarlar İttifaqının birgə təşkilatçılığı və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin dəstəyilə 7-9 iyun 2019-cu il tarixlərində Bakıda, Heydər Əliyev Mərkəzində ilk dəfə olaraq "Tarixi şəhərlərdə kütləvi turizm" adlı Beynəlxalq Memarlıq Forumu keçirilib. Onu da vurğulayaq ki, forumda iştirak etmək üçün ölkəmizə 350 nəfər xarici qonaq gəlmişdi. Forum çərçivəsində 4-cü Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin, iyunun 10-da Beynəlxalq Memarlar İttifaqının Şura iclası və iyunun 11-də növbədənkənar Baş Assambleyası keçirilib. Forumun işində Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonye, BMT-nin Dünya Turizm Təşkilatının turizm bazarının təhlili və rəqabətliliyi departamentinin baş mütəxəssisi Miçel Julian iştirak ediblər.

Sözügedən forumda işğal altında olan Azərbaycan abidələrinin taleyinə də toxunulub. Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, tədbirdə erməni vandalizmindən geniş şəkildə bəhs edilib.

"Mən də bu tədbirdə iştirak edirdim və orada çıxışım da oldu. Məqsədim o idi ki, dünyanın dörd qitəsindən bura axışan memarların diqqətinə Azərbaycanın işğal altındakı ərazilərində qalan mədəni irsin erməni vandalizminə uğradıldığını diqqətə çatdıram. Əvvəlcədən deyim ki, bu işdə mənə Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, Əməkdar memar Elbay Qasımzadə və Peşəkarlıq etikası Kollegiyasının sədri Babakişiyev Rasim Cəlal oğlu açıq dəstək verdilər. Məhz onların dəstəyi sayəsində, xüsusi bir salonda 1200 fotoşəkildən ibarət işğal altındakı memarlıq abidələrinə vurulan zərərləri əks etdirən bir sərgini üç gün nümayiş etdirdik.

Eyni zamanda da mən Azərbaycanın işğal altındakı mədəni irsinin son durumu haqqında məruzə etdim. Azərbaycan tolerantlıq və multikulturalizm ənənələrinə sadiq qalan bir ölkədir. Burada hər bir milli azlığın dini və milli dəyərləri qorunur və bərabər şəkildə təbliğ edilir. Forum iştirakçılarına dedim ki, forumdan sonra vaxt ayırıb bizim bölgələrimizə səyahət etsəniz, mənim bütün bu dediklərimin əyani şahidi olacaqsınız. Turizm həm də dünyada xalqlar arasında dostluğun və əməkdaşlığın inkişafına töhfə verən bir sahədir. Bu baxımdan, dünyada turizm sənayesinin inkişafı olduqca vacibdir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da turizm sənayesinin yüksək templə artan inkişafı göz qabağındadır. Turizmin inkişafı üçün ölkəmizdə sabitlik, iqtisadiyyatın dinamik inkişafı və zəngin tarixi mədəni irs mövcuddur. Turizmin inkişafı ölkələrdə tarixi mədəni irsin qorunmasını zəruri edir. Bu fakt UNESCO-nun konvensiyalarında və protokollarında tələb kimi irəli sürülür. Nə qədər acı olsa da deməliyəm ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin 20%-ni işğal etməsi Azərbaycanın turizm sənayesinə yüz milyard dollar zərər vurub, işğal altındakı ərazilərdə qalan 2645 tarix və mədəniyyət abidəsinin bir qisminin məhv edilməsinə, bir qisminin isə formasının dəyişdirilərək "erməniləşdirilməsinə" səbəb olub.

Bildirdim ki, Ermənistan Respublikası "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının müvafiq müddəalarını pozaraq vandalizm hallarına yol verir. Bütün bunları əyani şəkildə görməyiniz üçün biz foyedə erməni vandalizminə uğradılan tarix və mədəniyyət abidələrinin bir qismindən ibarət sərgi açdıq və onları qonaqlara təqdim etdik ki, onlar bu dəhşətli mənzərələri öz gözləri ilə görsünlər. Konvensiyaya üzv dövlətlər "mədəni mülkiyyətə qarşı yönəlmiş vandalizm aktlarını qadağan etmək, qarşısını almaq və zərurət yaranarsa, mədəni mülkiyyətə qarşı yönəlmiş oğurluq, qarət və qanunsuz mənimsəmənin istənilən formasına son qoymaq" barəsində razılığa gəliblər.



*"Mən Qarabağdan olan bir məcburi köçkün kimi, erməni vandalizmi barədə forum iştirakçılarına məlumat verməyi özümə borc bildim"*

1954-cü il Haaqa Konvensiyasına 1999-cu ildə qəbul edilmiş İkinci Protokol silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması dairəsini daha da genişləndirdi. Xüsusilə Ermənistanın Azərbaycan torpaqlarını işğalı kontekstində, Protokolun 9-cu bəndi işğalda iştirak edən tərəfin "işğal edilmiş ərazilərə münasibətdə" mədəni mülkiyyətin, istənilən arxeoloji qazıntı nümunəsinin qanunsuz ticarəti, bu ərazilərdən çıxarılması, abidələrin mədəni, tarixi və ya elmi sübut xüsusiyyətinin dəyişdirilməsi və ya dağıdılmasını qadağan etməsi və qarşısının almasını təsbit edir.

Eyni zamanda, "Mədəni dəyərlərin qanunsuz yolla gətirilməsinin, aparılmasının və mülkiyyət hüququnun verilməsinin qadağan edilməsi və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında" 1970-ci il Paris Konvensiyası və "Oğurlanmış və qanunsuz yolla ölkədən çıxarılmış mədəni dəyərlər haqqında" 1995-ci il Konvensiyasında təsbit edilən müddəalara əsasən, silahlı münaqişələr zamanı mədəni mülkiyyət və mədəni irsə qarşı əməllər beynəlxalq cinayət hüququ ilə hərbi cinayət hesab olunur. Haaqa Konvensiyanın tətbiq edilməsi qaydalarını müəyyən edən icraedici reqlament və işğal edilmiş ərazilərdən mədəni dəyərlərin çıxarılmasını qadağan edən protokol da qəbul edilib.

21 dekabr 2012-ci il tarixində Parisdə UNESCO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin 7-ci sessiyasında işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında qərar Azərbaycanın təşəbbüsü ilə qəbul edilib".

F.İsmayılov qeyd etdi ki, qərarda işğalçı ölkələr tərəfindən işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında hesabatın verilməsi öhdəliyi və bu ərazilərə texniki missiyaların göndərilməsi imkanları əks olunub. F.İsmayılovun sözlərinə görə, 18-19 dekabr 2013-cü il tarixlərində Parisdə keçirilən UNESCO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin 8-ci sessiyasında qəbul edilmiş digər sənəddə Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası və onun iki protokolunda işğal edilmiş ərazilərə aid müddəaların hüquqi təhlili, onların həyata keçirilməsi mexanizmləri, monitorinq məqsədilə UNESCO tərəfindən texniki missiyaların göndərilməsi, UNESCO-nun baş direktoru tərəfindən BMT-nin Təhlükəsizlik Şurası və Baş Məclisində qəbul olunacaq qətnamələrdə işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması məsələsinin diqqətə çatdırılması və s. öz əksini tapıb: "Azərbaycan Respublikasının UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə komitəsinə üzv seçilməsi Azərbaycana işğal altında qalan tarix və mədəniyyət abidələrinin qorunması haqqında qəbul edilmiş beynəlxalq hüquqi sənədlərdən yararlanmaq imkanı verir. Belə ki komitə Azərbaycana onun işğal altında qalan tarix və mədəniyyət abidələrinin qorunmasına nəzarət edilməsinə şərait yaratmalı və işğalçı tərəfin - Ermənistanın nəzərinə münaqişə zonasında mədəni mülkiyyətin qorunmasının vacibliyini çatdırmalıdır. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindəki tarix və mədəniyyət abidələrinə öz mülkiyyət hüququnu tətbiq etməsi, faktiki olaraq, Azərbaycanı öz mədəni dəyərləri üzərindəki hüququndan zorakı surətdə təcrid edir. Dağlıq Qarabağ və ona bitişik ətraf ərazilərin "qədim erməni torpaqları olması" barədə Ermənistanın qanunsuz iddiası işğal etdiyi Azərbaycanın 20% torpaqlarına sahib olmaq istəyinə haqq qazandırmaqdır. Məhz buna görə də Ermənistan işğal altında saxladığı Azərbaycan ərazilərində müxtəlif əsrlərə aid olan daşınmaz tarix və mədəniyyət abidələrini, digər kateqoriyadan olan daşınan mədəni irs nümunələrini dağıtmaq, yox etmək kimi qanunsuz fəaliyyət həyata keçirir. Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar siyasəti nəticəsində (Ermənistan-Azərbaycan cəbhə xəttində tətbiq edilən atəşkəs dövrü) 10 mindən çox yer adını, daşınmaz tarix və mədəniyyət abidələrinin adlarını və yüzlərlə toponimi dəyişdirərək erməni adları ilə əvəz ediblər. Ermənistan işğal altında saxladığı Azərbaycan ərazilərində azərbaycanlıların yaşadıqları kənd və şəhərlərin xarabalıqlarında çoxlu sayda erməni kilsəsi inşa edib. Eləcə də Azərbaycanın işğal altındakı bütün ərazilərində yüzlərlə erməni xaç nişanlarını daş üzərində yaradaraq yayır, beynəlxalq terrorçulara memorial komplekslər tikirlər. Ermənistanın bu fəaliyyəti mütəmadi olaraq hər il davam etdirilir. Aparılan tədqiqatların yekunu olaraq gəldiyimiz nəticəyə görə, tərəfimizdən Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların sırasına sənət abidələri, memarlıq abidələri, tarixi abidələr, arxeoloji abidələr, incəsənət abidələri, muzeylər, kitablar, əlyazmalar, arxiv fondlarının talana və dağıntılara məruz qalıb. Daha dəqiq desək, 1510 mədəniyyət müəssisəsi, o cümlədən, 365 klub, 761 kitabxana, 193 mədəniyyət evi, 2645 tarix və mədəniyyət abidəsi, 1814 memarlıq abidəsi, 747 arxeoloji abidə, 64 bağ-park monumental və xatirə abidələri, 23 muzey, 102 757 muzey eksponatı, 4 Dövlət Rəsm Qalereyası, 376 rəsm əsəri, 4,6 milyon kitab, 13 arxiv, 260 000 arxivləşdirilmiş sənəd, 50 000 ədəddən çox, vətəndaşların şəxsi kolleksiyalarında saxlanan tarixi əhəmiyyətli ov və məişət əşyaları (xalı, fərməş, palaz, xurcun, tikmə, kəmər, məişət əşyaları və s. mədəni irs nümunələri) Ermənistan Respublikasının silahlı təcavüzü nəticəsində dağıdılıb, məhv edilib və ya mənimsənilib.

Mən Qarabağdan olan bir məcburi köçkün kimi erməni vandalizmi barədə forum iştirakçılarına məlumat verməyi özümə borc bildim".

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Bakı-Tiflis-Qarsın fantastik nəticəsi - Avrasiyada yükdaşımalar coğrafiyası tamamilə Azərbaycanın lehinə dəyişdi...

**Azərbaycanın böyük uğurla reallaşdırdığı Bakı-Tiflis-Qars dəmir yolu xəttinin Avrasiya məkanında yükdaşımalar üzrə coğrafiyada əhəmiyyətli dəyişikliklərə gətirib çıxaracağına dair verilən proqnozlar özünü doğruldur. Hətta iş o yerə çatıb ki, Rusiya özünün ən böyük layihələrindən birini məhz Bakı-Tiflis-Qarsa bağlamaqla yükdaşımalarını artırmaq niyyətindədir. Hesab edilir ki, bu reallaşarsa, Azərbaycan üzərindən daha böyük həcmdə yükdaşımalar həyata keçəcək.**

Məsələ burasındadır ki, Rusiya Transsibir dəmir yolu xəttilə yük axınının, o cümlədən konteyner daşımalarının bir hissəsini Azərbaycan və Gürcüstandan keçməklə Türkiyəyə, oradan isə Avropaya çatdırmağı planlaşdırır. "Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun birinci müavini Aleksandr Mişarin "RİA Novosti"yə müsahibəsində bu xüsusda bildirib:

"Layihə artıq reallaşdırılır. O, Azərbaycan-Gürcüstan-Türkiyə arasında razılığa əsasən həyata keçirilir. Söhbət iki ox eni (1435 və 1520 millimetr) olan dəmir yolu xəttinin tikintisindən gedir. Bu bizə imkan verəcək ki, Transsibir dəmir yol xətti ilə yük axınının, o cümlədən konteyner daşımalarının bir hissəsini Azərbaycan və Gürcüstandan keçməklə Türkiyəyə, oradan isə Avropaya çatdıraq". "Rusiya Dəmir Yolları" ASC-nin bu layihədə necə iştirak edəcəyi sualına cavab verərkən Mişarin deyib ki, "RJD Loqistika"nın birgə müəssisəsinin yaradılması üçün hazırlıqlar gedir. Onun sözlərinə görə, daşımaların təşkili üçün Türkiyə və Rusiya tərəfindən müəssisə yaradılacaq.

Xatırladaq ki, Transsibir dəmir yol xətti Avrasiya ərazisindən keçməklə paytaxt Moskvanı şərqi Sibirin və Uzaq Şərqin böyük sənaye şəhərləri ilə birləşdirir. Dünyanın ən uzun magistral xətti olan Transsibir dəmiryolunun uzunluğu 9288,2 kilometrdir. İndi onun yaxın tezlikdə Bakı-Tiflis-Qarsa birləşməsi gözlənilir. Xatırladaq ki, 2017-ci ilin sonundan Bakı-Tiflis-Qars dəmir yolu xəttilə yük daşınması həyata keçirilir. İlkin mərhələdə bu marşrut üzrə yük daşımalarının həcmi 6,5 milyon ton səviyyəsində olacaq, eləcə də 1milyona yaxın sərnişin daşınacaq. Bakı-Tiflis-Qars Çindən gələn malların Avropaya çatdırılma müddətini əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. May ayında Azərbaycan və Rusiya dəmir yolları arasında əməkdaşlığın inkişafı haqqında memorandum imzalanıb. Tərəflər dəmir yolu sektorunda milli dəmiryol şirkətlərinin nəqliyyat və tranzit potensialının inkişafı üzrə kompleks əməkdaşlığı inkişaf etdirmək barədə razılıq əldə edib. Ekspertlər isə bildirir ki, Rusiyanın Bakı-Tiflis-Qarsa marağının getdikcə artması təsadüf deyil. Məlumdur ki, Bakı-Tiflis-Qars işə düşənə qədər Asiyadan Avropaya yüklərin çox hissəsi dəniz yolu, daha doğrusu, Süveyş kanalı vasitəsilə daşınıb. Amma bu marşrutla daşınan yüklərin nəqliyyat xərcləri baha başa gəldiyi üçün istehsalçı və alıcılara sərf etmir. Hazırda 21 min kilometr məsafəni 30-35 sutkaya qət etməklə bir konteyneri sifarişçilərə 850 dollara çatdırmaq mümkündür. Amma Bakı-Tiflis-Qarsla yüklərin daşınması həm ucuz, həm də qısa vaxta başa gəlir. Bakı-Tiflis-Qars işə düşməzdən əvvəl Rusiya Asiyadan Avropaya daşınan yüklərin bir hissəsinin öz ərazisindən keçməsini istəyirdi. Bu məqsədlə Çin və digər Asiya ölkələrinə Transsibir marşrutundan istifadəni təklif edərək, onun daha sərfəli marşrut olduğunu sübut etməyə çalışırdı.



Yeri gəlmişkən qeyd edək ki, şimal qonşumuzun təklif etdiyi marşrut dəniz yolu ilə Süveyş kanalından keçən marşrutdan 10 min kilometr qısadır. Amma hazırda Asiyadan Avropaya daşınan yüklərin cəmi 1 faizi Rusiya ərazisindən tranzit olunur. Rusiya isə bu rəqəmi 10-15 faizə çatdırmaq niyyətindədir. Məqsəd ənənəvi marşrutla daşınan 500 milyard dollarlıq yükün bir hissəsinin öz ərazisindən tranzitinə nail olmaqdır. Bu istək baş tutarsa, daşımalardan Rusiya ildə milyardlarla dollar qazana bilərdi. Lakin şimal qonşumuz bununla da kifayətlənmək fikrində deyildi. O, Çinlə danışıqlar apararaq ikinci Transsibir dəmir yolunun çəkilməsinə də nail olmaq istəyirdi. Ən maraqlısı budur ki, Rusiya Çinə ənənəvi Süveyş kanalı marşrutu əvəzinə yüklərin Şimal Buzlu okeanı ilə daşınmasını da təklif edirdi. Bu marşrut isə il boyu işləmir. Bu səbəbdən Rusiya Çinlə birgə elmi tədqiqatlar aparmaqla həmin marşrutdan il boyu istifadə etməyin mümkün olduğunu sübut etməyə çalışırdı. Şimal Buzlu okeanı marşrutunun Süveyş kanalı marşrutundan üstün cəhəti odur ki, malları bu yolla Çindən Avropaya ənənəvi marşrutdan 10 gün tez çatdırmaq mümkündür. Bu, ticarətdə xüsusi önəm daşıyan haldır. Amma Bakı-Tiflis-Qarsın işə düşməsi Avrasiyada yükdaşımalarla bağlı tamamilə yeni vəziyyət yaradır. Çin və digər Asiya ölkələrinin, o cümlədən Avropanın bu xəttə marağını görən Rusiya indi ona qoyşulmağa hazırlaşır. Bu da təsadüfi deyil. Belə ki, ənənəvi marşrutlarla Çindən İngiltərə, Fransa, Almaniya kimi ölkələrə yükdaşıma müddəti təxminən 45-62 gündür. Bakı-Tiflis-Qars isə həmin yükləri 12-15 gün arasında Avropaya çatdırmaq imkanına malikdir. Bundan başqa, dəmir yolu ilə yüklərin daşınmasının maya dəyəri də aşağıdır. Qeyd edilən faktor, sözsüz ki, Bakı-Tiflis-Qarsa marağı daha da artırır.

Digər tərəfdən, Çin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində bütün diqqəti məhz Bakı-Tiflis-Qarsa yönəldib. Pekin burada onu da nəzərə alır ki, Çindən gələn malların Avropaya daşınması üçün Azərbaycanda mükəmməl infrastruktur yaradılıb. Ölkəmizin Qazaxıstanın Aktau limanından yükləri daşımaq üçün 260 gəmidən ibarət güclü donanması var. Eyni zamanda, bu yüklərin boşaldılması və yola salınması üçün Ələtdə beynəlxalq əhəmiyyətli liman tikilib. Limandan yüklərin Avropa ölkələrinə daşınması üçün Bakı-Tiflis-Qars fəaliyyət göstərir. Eyni zamanda, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edir. Məhz bütün bunlar Çinin, digər layihələrlə müqayisədə, Bakı-Tiflis-Qarsa daha çox diqqət ayırmasına rəvac verir. Bunu nəzərə alan Rusiya da indi Bakı-Tiflis-Qarsla yükdaşımalara xüsusi diqqət yetirir.

***Nahid SALAYEV***

# Yazıçılar Birliyində məhkəmə qalmaqalı - Çingiz Abdullayev Elşad Baratı niyə məhkəməyə verir...

**Azərbaycan Yazıçılar Birliyi (AYB) ətrafında qalmaqallar səngimək bilmir. Demək olar ki, son illər AYB rəhbərliyi ilə gənc yazarlar arasında bir sıra münaqişələr, söz-söhbətlər yaşanıb ki, bu da gənclərin bu quruma rəhbərlik edənləri müxtəlif məsələlərdə ittiham etməsi ilə bağlıdır.**



*"... qoy yuxarı dairələrdən bir komissiya təşkil edilsin və onlar araşdırıb görsünlər ki, AYB-yə ayrılan büdcə hara gedir, o vəsaiti kim xərcləyir?"*

## *"Çingiz müəllim məni sərt şəkildə təhqir edib və buna görə mən də şikayətçi olacağam"*

AYB ilə bağlı yeni qalmaqal gündəmə gəlib. Mətbuatın yazdığına görə, Xalq yazıçısı, AYB katibi Çingiz Abdullayev gənc yazar Elşad Baratı məhkəməyə verir. Bildirilənə görə, Xalq yazıçısının gənc yazar E.Baratı məhkəməyə vermək istəyinə gənc yazarın onun haqda yazdığı status və paylaşdığı foto səbəb olub. Qeyd edilənə görə, E.Batat statusunda qeyd edib ki, Ç.Abdullayev AYB-yə, gənc və kasıb yazıçı-şairlərə ayrılmış 800 min manatdan gedib özünə 6-cı maşını alıb... "Bu da Çingizin 6-cı maşını. Nömrələrinə baxın hələ, əlində imkan var deyə, restoranı arenda verir, büdcəni dağıdır..." - gənc yazar statusunda qeyd edib.

Xalq yazıçısının E.Baratı məhkəməyə verməsi mediada böyük hay-küyə səbəb olub.

Gənc yazar E.Barat "Bakı-Xəbər"ə bildirdi ki, sosial şəbəkələrdə Ç.Abdullayevin maşını olduğu bildirilən bir foto paylaşılıb, o da həmin fotonu öz səhifəsində paylaşıb. "Mən də götürüb o fotonu paylaşıb yazdım ki, baxın, bu, Ç.Abdullayevin 6-cı maşınıdır. Bir də baxdım ki, saytlardan birindən mənə zəng vurub "Ç.Abdullayev səni məhkəməyə verir" dedilər. Niyə? Səbəb də həmin fotonu paylaşmağım göstərilir. Mənim bildiyim budur. O anda da mənə gizli nömrədən zəng gəlmişdi, məni ölümlə hədələdilər, bilmirəm kimlər idi. Vəziyyət belədir. Ç.Abdullayev iddia etmirmi ki, maşın mənim deyil, büdcəni dağıtmıram, belədirsə, qoy yuxarı dairələrdən bir komissiya təşkil edilsin və onlar araşdırıb görsünlər ki, AYB-yə ayrılan büdcə hara gedir, o vəsaiti kim xərcləyir? Burada çox ciddi məsələlər var. Ç.Abdullayev o şəkli çəkib paylaşanları tapa bilmir, o səbəbdən də mənim üstümə düşür, "səni məhkəməyə verəcəyəm, sən vicdansızsan" deyib məni təhqir edir".

## *"Əmindirsə ki, maşın onun deyil, niyə hirslənir, məni təhqir edir?"*

E.Barat Xalq yazıçısının ana dilimizdə səlist danışmamasına da diqqət yönəldib. O qeyd edib ki, Ç.Abdullayev dilimizdə normal şəkildə danışa bilmir: "Əvvəla Xalq yazıçımız Azərbaycan dilini yaxşı bilmir, üç cümlə söyüş yazıb, otuz səhv buraxıb. İkincisi, mən onun maşınının şəklini çəkməmişəm, hansısa səhifədə paylaşmışdılar, mən də götürüb söyüşsüz-filansız paylaşmışam. İndi baxıram o səhifədən siliblər. Çingiz müəllim əmindirsə ki, maşın onun deyil, niyə hirslənir, məni təhqir edir? Sakitcə deyə bilərdi ki, bala, bu maşın mənim deyil, mən də deyərdim, ay Çingiz müəllim, səhifələr paylaşmışdı, yanlış olub yəqin, üzürlü bilin və bununla da məsələ bağlanardı. Çingiz müəllim məni sərt şəkildə təhqir edib və buna görə mən də şikayətçi olacağam.

**Gedib məsələni kökündən həll edə bilmir, ilk kim paylaşıbsa, onunla işini həll edə bilmir, gəlib mənim kimi kimsəsiz bir yazarın üstünə hücum çəkir? Bu nə ədalətdir? Bu nə yazıçılıqdır? Bayaq da mənə gizli nömrədən zəng gəlmişdi, məni ölümlə hədələdilər, bilmirəm kimlər idi. Mən ölümdən qorxmuram, sadəcə, üç körpə balam var. Çingiz müəllimin mənə qarşı işlətdiyi təhqiramiz sözlərə görə isə, sadəcə, heyfslənirəm" - deyə gənc yazar bildirdi.**

Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini dərc edə bilərik.

***İradə SARIYEVA***

# Ümumdünya Gömrük Təşkilatı Bakıda İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı keçirdi

**Bakı şəhərində, Heydər Əliyev Mərkəzində keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi davam edir.**




DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı Xəbər"ə bildirildiyinə görə, Konfransın "Gələcəyin yaşıl nəqliyyat və logistikasına sərhəd idarəçiliyinin münasibəti" adlı ikinci plenar sessiyasında malların sərhəddən sürətli və ekoloji cəhətdən təhlükəsiz keçirilməsi məqsədilə daşıyıcılara və logistik şirkətlərə dəstək üçün intellektual qurğuların köməyilə toplanmış məlumatların gömrük-sərhəd orqanları tərəfindən hansı səviyyədə istifadə edilməsi məsələsi nəzərdən keçirilib.

Sessiyada çıxış edən Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ticarət zəncirinin iştirakçıları ilə bağlı məsələyə toxunub. Qeyd edilib ki, gömrük xidməti gələcəkdə həm ticarətin asanlaşdırılması, həm də risqlərin idarə olunması prizmasından yanaşaraq, həmçinin ekoloji tarazlığı qorumaqla blokçeyn texnologiyasının istifadəsini təşviq etməlidir. DGK sədri vurğulayıb ki, blokçeyn texnologiyasına üstünlük verən standartlar müəyyənləşdirilməli, ticarətin asanlaşdırılması və ticarət zəncirinin təhlükəsizliyi təmin edilməli, xüsusilə də ekoloji tarazlıqla bağlı problemlər aradan qaldırılmalıdır.

Səfər Mehdiyev diqqətə çatdırıb ki, bəzi dövlətlərdə blokçeyn texnologiyasından müxtəlif məqsədlər üçün istifadə edilir. Məsələn, qaçaqmalçılığın qarşısının alınması, məlumatların öncədən verilməsi, vergi toplanması məqsədilə bu texnologiyaya üstünlük verilir. Blokçeyn texnologiyasının inkişafı ilə bağlı layihələrə həm Avropa Yenidənqurma və İnkişaf Bankı, həm də digər maliyyə institutları dəstək verməlidir.

"Biz pilot layihə olaraq bu texnologiyadan istifadəni bir neçə dövlətlə birlikdə həyata keçirməyi planlaşdırırıq. Bu üstünlükləri sahibkarlar görməli və onları blokçeyn texnologiyasından istifadəyə təşviq etməliyik", - deyə Səfər Mehdiyev bildirib. Komitə sədri onu da deyib ki, bu istiqamətdə inkişafa gətirib çıxaracaq yeganə metodlardan biri ticarət zəncirinin bütün iştirakçılarının bu sahəyə cəlb edilməsini təşviq edəcək normaların müəyyənləşdirilməsidir.

Niderland Gömrük Xidmətinin Ticarət Əlaqələri Departamentinin rəhbəri Frank Heijman isə çıxışında ticarət şərtlərinin asanlaşdırılması məsələsinə toxunub. Bildirilib ki, ticarət şərtlərinin asanlaşdırılması üçün dövlət bu sahəyə vəsait yatırır və "bir pəncərə" sistemini formalaşdırır. "Bir pəncərə" ilə bağlı özəl sektor fəal olmalı və öz mövqeyini nümayiş etdirməlidir. Frank Heijman qeyd edib ki, blokçeyn texnologiyasından istifadə zamanı bilməliyik ki, məlumatlar paylaşılarkən necə ötürülür. Konfrans çərçivəsində bu texnologiyanın təfərrüatları incələnməli, birlikdə təhlil edilməlidir.

Öz növbəsində, Sloveniya Logistik Assosiasiyasının prezidenti İqor Zula çıxışında logistika məsələlərinin müxtəlif aspektlərini təhlil edib. Qeyd edilib ki, biznes prosesləri logistik baxımdan daha da optimallaşdırılmalıdır. İqor Zula yaşıl logistika haqda da danışıb, təchizat zəncirində aparılan proseslə bağlı geniş məlumat verib. Tövsiyə edilib ki, müsbət nailiyyətlərə nail olmaq üçün daha az məsafələr qət olunmalı, daha ağıllı texnologiyalar tətbiq edilməlidir.

Avropa Yenidənqurma və İnkişaf Bankının dayanıqlı nəqliyyat üzrə əsas sektorunun rəhbəri xanım Tara Şirvani isə çıxışında qurumun həyata keçirdiyi layihələrdən və investisiyalardan bəhs edib. Blokçeyn texnologiyasından istifadəni dəstəklədiyini bildirən Tara Şirvani bu sahədə risklərin də nəzərə alınmasının tərəfdarı olduğunu söyləyib. Qeyd edilib ki, blokçeyn texnologiyasından istifadə zamanı əlavə enerjiyə tələbat yaranacaq və bu tələbatın təbii yollarla əldə edilməsi mümkündür.

**Daha sonra konfransın işi panel sessiyalarla davam edib. Sessiyalarda "Qoşulmuş qurğularla bağlı maneələrin aradan qaldırılması və əşyaların internetindən istifadə edilməsi", "Texnologiyaların tam potensialını ortaya çıxarmaq üçün maşınların öyrənmə potensialının, mərkəzləşdirilmiş Qeyri-İntruziv Yoxlama təsvirlərinin şərhinin və insan bacarıqlarının araşdırılması" mövzuları ətrafında müzakirələr aparılıb.**

**Bu tədris ili ərzində xarici ölkələrdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrin sayı iki dəfədən çox azalıb. Belə ki, 2013-2014-cü tədris ilində xaricdə Azərbaycan vətəndaşı olan 3035 tələbə dövlət xətti ilə təhsil aldığı halda, 2017-2018-ci tədris ilində bu rəqəm 1800-ə, 2018-2019-cu tədris ilində isə bu say daha da azalaraq 751-ə enib.**

# Xaricdə dövlət hesabına təhsil alan tələbələrimizin sayında azalma...



## *Məlahət Mürşüdlü: "Bunun başlıca səbəbi xaricdə təhsil alan tələbələrlə bağlı Dövlət Proqramının başa çatmasıdır"*

O da məlum olub ki, Azərbaycan vətəndaşları dövlət xətti ilə təhsil almaq üçün daha çox Türkiyənin ali təhsil müəssisələrini seçirlər. Ötən müddətə baxdıqda görmək olar ki, bu ölkədə dövlət xətti ilə təhsil alan azərbaycanlıların sayı təxminən 2 dəfə azalıb. 2013-2014-cü tədris ilində Türkiyədə 1024 azərbaycanlı tələbə təhsil aldığı halda, 2017-2018-ci tədris ilində bu rəqəm 569, 2018-2019-cu tədris ilində isə 243 olub.

Azərbaycan vətəndaşlarının dövlət xətti ilə təhsil almaq üçün üstünlük verdiyi 2-ci ölkə Rusiyadır. 2013-2014-cü tədris ilində Rusiyada 377 azərbaycanlı tələbə dövlət xətti ilə təhsil aldığı halda, 2017-2018-ci tədris ilində bu rəqəm 215-ə, 2018-2019-cu tədris ilində isə 184-ə enib.

Ölkə vətəndaşları təhsil almaq üçün daha sonra Böyük Britaniya, Almaniya, Kanada, Niderland və digər Avropa ölkələrini seçirlər. 2017-2018-ci tədris ili üzrə məlumata əsasən, Böyük Britaniyada 289 (5 il əvvəl 499), Almaniyada 188 (5 il əvvəl 351), Kanadada 137 (5 il əvvəl 179), Niderlandda 98 (5 il əvvəl 67) tələbə dövlət xətti ilə təhsil alır.

Bu tədris üzrə olan məlumata görə isə Böyük Britaniyada dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı 92, Almaniyada 98, Kanadada 48, Niderlandda 8-dir.

Göründüyü kimi, xarici ölkələrdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrin sayı əvvəlki illərlə müqayisədə xeyli azalıb. Eyni zamanda, azalma tendensiyası davam etməkdədir.

Maraqlıdır, xaricdə təhsil alan azərbaycanlı tələbələrin sayının azalması nəyin nəticəsidir? Bu, Azərbaycanda təhsilin səviyyəsinin artması ilə bağlı ola bilərmi? Yoxsa xaricdə təhsil almağa maraq azalıb?

## *"Bizim ali məktəblər bunu yüksək səviyyədə təşkil edirlər"*

**Sözügedən məsələyə aydınlıq gətirən təhsil sahəsi üzrə ekspert Məlahət Mürşüdlünün sözlərinə görə, bunun başlıca səbəbi xaricdə təhsil alan tələbələrlə bağlı Dövlət Proqramının başa çatmasıdır:** "Məsələ ondadır ki, 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramının icrası başa çatıb. Ondan sonra bakalavrlar üçün deyil, ancaq magistrlər üçün proqramın vaxtını uzatdılar. Magistr təhsili alanların sayı bakalavrlarla müqayisədə azdır. Ona görə də xarici ölkələrdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrin sayı xeyli azalıb. Yəni xaricdə magistr təhsili alanların sayı kütləvi deyil. Bakalavr təhsili ilə əlaqədar proqramın vaxtının uzadılması ilə bağlı müxtəlif fikirlər var. Ancaq hesab edirəm ki, bunu bütün ixtisaslara şamil etmək olmaz. Elə ixtisaslar var ki, ona ehtiyac var. Məsələn, xaricdə müəyyən dillərin öyrənilməsi ilə bağlı ixtisaslara ehtiyac var. Eləsi var ki, bunun üçün xaricdə təhsil almağa ehtiyac yoxdur. Müqayisə üçün qeyd edim ki, bank sistemi ilə bağlı xaricdə təhsilə ehtiyac yoxdur. Ona görə ki, bizim ali məktəblər bunu yüksək səviyyədə təşkil edirlər. Humanitar fənlər üzrə istəməzdim ki, bizim tələbələr xaricdə təhsil alsınlar. Çünki buna ehtiyac yoxdur. O üzdən, ancaq texniki ixtisaslara önəm verilməsi doğru olardı. Fikrimcə, buna tələbat varsa, proqramın vaxtını uzatmaq olardı".

***Vidadi ORDAHALLI***

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**BAĞIROV VÜQAR VAQİF oğlu**



5 aprel 1971-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Nəsimi rayonunda yaşamışdır. Nəsimi RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Vüqar Vaqif oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 4 iyul 1993-cü ildə Xocalı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Vüqar Vaqif oğlu 4 iyul 1993-cü il tarixində Xocalı rayonunun Xramort (indi Pirlər) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Vüqar Vaqif oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROVA (QULİYEVA) FATMA MƏHƏMMƏD (MƏMMƏD) qızı**

1932-ci ildə Azərbaycan Respublikasının Qubadlı rayonunda doğulmuşdur. İtkin düşənə qədər Qubadlı rayonunun Xanlıq kəndində yaşamışdır. Mülki şəxs. Bağırova Fatma Məhəmməd qızı Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən



Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 30 avqust 1993-cü ildə Qubadlı rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırova Fatma Məhəmməd qızı 30 avqust 1993-cü il tarixində erməni silahlı birləşmələri Qubadlı rayonunu işğal edən zaman yaşadığı Xanlıq kəndində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Bağırova Fatma Məhəmməd qızının sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROVA ZƏHRA SARI qızı**



1927-ci ildə Azərbaycan Respublikasının Xocalı rayonunda doğulmuşdur. İtkin düşənə qədər Xocalı rayon mərkəzində yaşamışdır. Mülki şəxs. Bağırova Zəhra Sarı qızı Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrin 26 fevral 1992-ci ildə Xocalıya hücumu və şəhərdə törədilən soyqırımı faciəsi zamanı itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırova Zəhra Sarı qızı 26 fevral 1992-ci il tarixində erməni silahlı birləşmələrinin Xocalıya hücumu və dinc əhaliyə qarşı törədilən soyqırımı faciəsi zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Bağırova Zəhra Sarı qızının sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIYEV FÜZULİ KNYAZ oğlu**



23 fevral 1974-cü ildə Azərbaycan Respublikasının İsmayıllı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər İsmayıllı rayonunun Mollaisaqlı kəndində yaşamışdır. İsmayıllı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağıyev Füzuli Knyaz oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 29 mart 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağıyev Füzuli Knyaz oğlu 29 mart 1993-cü il tarixində Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağıyev Füzuli Knyaz oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Bakıda pis və yaxşı çimərlikləri baxan kimi müəyyənləşdirmək olacaq



**Yay mövsümündə Bakı sakinlərinin, eləcə də qonaqların ən çox üz tutduğu yer Xəzərin sahilboyu çimərlikləri olur. Xəzərin sahilində yerləşən çimərliklərin bir qismi istifadəyə yararsızdır.**

Həmin çimərliklərin istifadəyə yararsız olmasını hətta Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri də təsdiqləyirlər.

İstifadəyə yararlı çimərliklərin istifadəyə yararsız çimərliklərdən fərqləndirilməsi üçün həmin istirahət məkanlarına işarə qoyulması təklif olunur.

İstifadəyə yararlı çimərliklərin fərqləndirilməsi və onların ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən layihə hazırlanır. Bunu nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova media nümayəndələrinə açıqlamasında deyib. Onun sözlərinə görə, layihəyə əsasən çimmək üçün yararlı olan ərazilərin işarələnməsi və həmin ərazilərə konteynerlərin yerləşdirilməsi təklif edilir: "Dünyada belə bir təcrübədən istifadə olunur və ekoloji standartlara cavab verən çimərliklərə mavi bayraq sancılması ənənəsi mövcuddur. Dünyanın bir sıra ölkələrinin çimərliklərində sancılan mavi bayraq çimərliyin yüksək imic qazanmasına xidmət edir".

*Telman Zeynalov: "Təmiz və istifadəyə yararlı çimərliklər işarələnməlidir ki, hər kəs işarə sayəsində istirahət məkanlarını ayırd edə bilsin"*

Ekspertlər də hesab edirlər ki, istifadəyə yararlı çimərliklər təmiz olmayan çimərliklərdən seçilməlidir.

*"Çimərlik mövsümü başlasa da, vətəndaşları Abşeron çimərliklərindən hansında çimməyin təhlükəsiz olması düşündürür"*

**Ekoloq Telman Zeynalov bizimlə söhbətində qeyd etdi ki, çimərliklərin istifadəyə yararlı olub-olmaması tam şəkildə araşdırılmalıdır:** "Çimərlik mövsümü başlasa da, vətəndaşları Abşeron çimərliklərindən hansında çimməyin təhlükəsiz olması düşündürür. Mütəmadi olaraq istifadəyə yararlı və yararsız çimərliklərin adı ictimaiyyətə açıqlanır. Lakin istifadəyə yararlı çimərliklər belə əksər vaxtlarda təmiz olmur. Bu səbəbdən insanlar çimərliklərin təmiz olmasına şübhə ilə yanaşırlar".

Həmsöhbətimiz bildirdi ki, təmiz və istifadəyə yararlı çimərliklər işarələnməlidir ki, hər kəs işarə sayəsində istirahət məkanlarını ayırd edə bilsin: "Belə bir fikir var ki, işarələnmiş çimərliklərə giriş üçün tələb olunacaq məbləğ yüksək olacaq. Nəzərə almaq lazımdır ki, hər kəs təmiz çimərliklərdə istirahət etmək istəyir. Bu səbəbdən də çimərliklərə daxil olmaq üçün tələb olunan məbləğ hər kəsin büdcəsinə uyğun olmalıdır".

*Günel CƏLİLOVA*

# Marketlərdə satılan pəhriz qidalara nə qədər etibar etmək olar...

**Sağlam və gümrah görünmək arzusu kimi müxtəlif səbəblər insanları pəhriz saxlamağa məcbur edir. Lakin pəhriz saxlayan insanlar nə qədər diqqət etsələr də, istədikləri çəkini heç cür əldə edə bilmirlər. Bunun səbəbi kimi dükan və apteklərdə satılan pəhriz qidalarının tərkibinin heç də original olmamasıdır.**



Artıq çəkidən xilas olmaq istəyənlərlə yanaşı, diabet xəstələri də pəhriz qidaları ilə qidalanırlar. Lakin bu xəstəlikdən əziyyət çəkən insanlar üçün nəzərdə tutulan pəhriz qidaları heç də onların sağlamlığına müsbət təsir etmir. Ekspertler qeyd edirlər ki, satışda olan dietik qidaların tərkibi heç də pəhriz üçün nəzərdə tutulmayıb.

Onu da bildirək ki, aptek və marketlərdə dietik qidalardan əsasən müxtəlif vaflilər, halvalar, şokoladlar, qənd, şəkər tozu, şirnilər, mürəbbələr və digər təamlar satılır. Aparılan araşdırmalar zamanı məlum olub ki şəkərli diabet xəstələri üçün nəzərdə tutulan "xüsusi" ərzaqlar saxta imiş. Hətta apteklərin bu malların satışı üçün rəsmi icazəsi belə yoxdur.

Ekspertlər bildirirlər ki, mağazaların əksəriyyəti şəkərdən əziyyət çəkənlər üçün dietik ərzaq məhsulları satsa da, burada satılanlar heç də həmişə orqanizm üçün xeyirli olmur. Əksinə, şəkər xəstələri daha çox əziyyət çəkirlər, hətta bu səbəbdən komaya da düşürlər. Amma çox vaxt fərqində olmurlar ki, əslində, dietik hesab edib aldıqları ərzaq məhsulu şəkər və digər kimyəvi qatışıqlarla zəngindir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, şəkər xəstələrinin rahat şəkildə onlar üçün nəzərdə tutulan təamları əldə etməsi üçün marketlərdə ayrıca vitrinlər mövcuddur.** Həmin vitrinlərdə diabetik qidalar satılır. Lakin diabetik qidaların tərkibi şəkər xəstələri üçün uyğun deyil. Çünki o təamlar original deyil: "Marketlərdə şəkər xəstələri üçün xüsusi "zəif qənd" adlı şirnilər satılır. Lakin bu şirnilərin tərkibi şəkərlə zəngindir. Bu problemin həll olunması üçün aidiyyəti qurumlara dəfələrlə müraciət etmişik".

Həmsöhbətimiz hesab edir ki, marketlərdə şəkər xəstələri üçün hazırlanan vitrinlərdə olan qidaların tərkibi tam şəkildə araşdırılmalıdır: "Həm şirnilərin, həm də pəhriz çörəklərinin tərkibi müəyyən olunmalıdır".

Ekspert onu vurğuladı ki, bu sahədə vəziyyət acınacaqlıdır: "Bu cür dükanlarda heç də şəkərin səviyyəsinin azaldılmasına təsir edən mallar satılmır. Bəzən də bu malların vaxtı keçmiş olur. Bu sahədə böyük problemlər var. Hər bir dükan qazanca görə dietik məhsul satmaq üçün hissə ayırsa da, bu məhsulların heç birinin tibbi monitorinqi aparılmır. Bununla da şəkər xəstəsi olan əhalini aldadırlar. Təəssüf ki, bu sahədə özbaşınalıqdır. Ona görə də şəkər xəstələri özləri diqqətli olmalıdırlar. Məhsulların üzərində dietik sözünün yazılmasına da inanmasınlar".

*Eyyub Hüseynov: "İstehlakçılar məhsulların üzərində dietik sözünün yazılmasına da inanmasınlar"*

*Nadirə Əliyeva: "Diabet üçün nəzərdə tutulan ərzaq məhsulları xəstələr üçün əməlli-başlı problem yaradır"*

**Dietoloq Nadirə Əliyeva bildirdi ki, diabet üçün nəzərdə tutulan ərzaq məhsulları xəstələr üçün əməlli-başlı problem yaradır:** "Xəstələr elə başa düşürlər ki, məhsulun üzərində şəkərli diabet üçün yazılıbsa, bu ərzaqlardan istədikləri kimi istifadə edə bilərlər. Hazırda satılan pəhriz çörəkləri ilə bağlı problemlər var. Çünki bu çörəklərin tərkibində şəkərin artmasına səbəb ola biləcək maddələr var".

Həkim onu da vurğuladı ki, hazırda tərkibində şəkər olan məhsullar həm apteklərdə, həmçinin də mağazalarda şəkər xəstələri üçün hazırlanmış məhsullarla birgə, eyni vitrində satılır.

Bu məsələlərlə bağlı dəfələrlə müvafiq qurumlara müraciət etsələr də, bunun nəticəsi olmayıb: "Elə məhsullar var ki, diabeti olan insanlar bu məhsullardan qətiyyən istifadə etməməlidirlər. Məsələn, "Sladkiy saxar" adlı məhsulun arxasında şəkər xəstələri üçün tövsiyə olunduğunu əks etdirən qeyd öz əksini tapıb. Qəndin 100 qramında 99,6 qram şəkər olsa da, bu məhsul hazırda Azərbaycanda şəkərli diabet xəstələri üçün hazırlanmış məhsullarla eyni vitrində satılır.

Bu isə şəkər xəstələri üçün çox təhlükəlidir. Çünki sözügedən qənd çörəkdən də artıq və sürətlə qanda şəkərin miqdarını artırır. Bu bir biznesdir deyə, heç kim bu məhsulu satışdan çıxarmır. Təəssüflər olsun ki, bu məsələyə heç kim baxmır".

**Həmsöhbətimiz onu da vurğuladı ki, mağazalarda diabet xəstələri üçün nəzərdə tutulan şirələr də satılır. Meyvə şirələri şəkər xəstələrinin vəziyyətini daha da ağırlaşdırır. Çünki meyvə şirəsi şəkəri sürətlə qaldırır. Xəstəyə təbii şirə olmazsa, deməli, şəkər əvəzedicisi qatılmışı da olmaz.**

*Günel CƏLİLOVA*

**Tarixən Azərbaycanda bir sıra xalq sənəti növləri inkişaf edərək, nəsildən-nəslə keçərək günümüzə qədər gəlib çatıb. Əcdadlarımızın əmanəti olan bu sənət növlərini bu gün yaşadan, təbliğ edən sənətkarların mövcudluğu o sənət sahələrinin sabah da var olacağını, yaşayacağını düşünməyə əsas verir.**

# Ağacdan "adam yonan" gəncəli Mahirin nadir sənətini kim və necə xilas edəcək...

Xalq sənətkarlarının böyük zəhmət, əziyyət bahasına yaşatdığı qədim sənət növlərimizə gerçək bir dövlət dəstəyi var. Dövlətimiz xalq sənətinin yaşaması üçün müxtəlif istiqamətlərdə şərait yaradır. Bu da xalq sənətini yaşadanlara imkan verir ki, bu sənəti gələcək nəsillərə ötürə bilsinlər. Bu gün Azərbaycanda müxtəlif qədim sənət növləri var və onların inkişafı yönündə işlər görülür. Bu işi həyata keçirən, sənəti ölməyə qoymayan sənətkarların isə daha çox dəstəyə ehtiyacı var.

Sənətkar var ki, dilsiz ağaca can verib onu həyat, yaşayış üçün bir dəyərə, həmişəyaşar bir sərvətə çevirir. Gəncəli ağacoyma ustası Mahir Dəmirov kimi. Gəncədə yaşayıb yaradan usta Mahir mahir bir ağacoyma sənətkarıdır. Kiçik bir bıçaq tiyəsi ilə aləm yaradan usta Mahir bu sənətə 50 yaşından sonra başlasa da, bu günə kimi onlarla sənət əsəri yaradıb. Uzaq yolu qət edib redaksiyamıza gələn gəncəli sənətkarın sözlərinə görə, ağacoyma sənəti olduqca çətin, eyni zamanda da istedad, duyum, ürək tələb edən bir sahədir. "Təxminən 10 ildir ağacoyma sənəti ilə məşğulam. Bu işə 50 yaşımdan sonra başlamışam. Rəssam olmasam da, yaxşı əl qabiliyyətim var və bu əsərlərin yaranmasında da bu istedadımın böyük köməyi var. Əslində, ağacoyma sənəti ilə məşğul olmağım bir təsadüfdən yarandı. İlk işimə nərdtaxta düzəltməklə başladım. Qonşumuzun bir yarımçıq işlənmiş nərdtaxtası vardı, xahiş etdi ki, onu tamamlayım. Bunun ardınca da iki başqa yarımçıq işi başa çatdırdım. İndiyə qədər saysız əsər yaratmışam. Ancaq heç vaxt sərgilərdə iştirak etməmişəm. Mən evimdə oturub işləyirəm və sifarişi də gəlib evdə verirlər".

Əsasən qoz və palıd ağaclarını yonmaqla böyük möcüzələr yaradan usta Mahir deyir ki, artıq ağacların dilini, xasiyyətini bilir. Hər iki ağacın davamlı, uzunömürlü olduğunu deyən ustanın sözlərinə görə, bu ağaclar naxışlı olduğundan, əsərlər daha gözəl və parlaq alınır.

Emalatxanasının olmadığını bildirən usta Mahirin sözlərinə görə, ən böyük arzusu emalatxana açmaq və burada şəyirdlər yetişdirməkdir: "Mən bu gün bu sənətlə, dediyim kimi, evimdə məşğul oluram. Bir emalatxanam yoxdur ki, bir neçə istedadlı uşaq götürüb bu sənəti onlara öyrədim. Məqsədim sənətimi gənclərə öyrətməkdir. Bunun üçün isə, sözün açığı, heç bir şəraitim yoxdur. Ağacoyma sənətinin gələcək nəsillərə ötürülməsi olduqca vacibdir. Ata-babalarımızdan miras qalan bu sənətin yaşaması üçün onu gənclərə öyrətmək lazımdır ki, gələcəkdə itib-batmasın".

*"Ümid edirəm ki, aidiyyəti qurumlar səsimi eşidəcək, çünki sənətin yaşaması üçün səsimə səs verilməsi vacibdir"*





*"Ümumiyyətlə, xalq sənətini yaşadan, bu işlə məşğul olan sənətkarlara güzəştli kreditlərin verilməsi də çox vacibdir"*

Bildiyimiz kimi, məşğulluq mərkəzlərinin ABAD layihəsi mövcuddur və bir sıra xalq sənəti ilə məşğul olan insanlar bu layihədən yararlanaraq öz fəaliyyətlərini genişləndirirlər. Hətta bəzi sənətkarlar ABAD-a qoşulduqdan sonra özləri üçün yaradıcılıq emalatxanaları da qura biliblər. Bu yaradıcılıq emalatxanalarında həm sənətkarlar əl işləri düzəldirlər, həm də bu sənətlərin sirlərini gənclərə öyrədirlər. Usta Mahirin də arzusu ABAD layihəsinə qoşularaq öz fəaliyyətini daha geniş səviyyədə qurmaqdır. Ustanın sözlərinə görə, bununla bağlı Gəncə Məşğulluq Mərkəzinə müraciət etsə də, hələ də müraciətinə müsbət cavab ala bilməyib. "Bilirsiniz, bu işin başa gəlməsi çox bahalıdır. Mən bir neçə dəfə material almaq üçün bankdan kredit götürmüşəm, lakin o pulla elə də çox iş görə bilməmişəm. Çünki devalvasiyadan sonra vəziyyət pisləşdi. Mən ABAD layihəsinə qoşulmaq üçün Gəncə Məşğulluq Mərkəzinə müraciət etdim, sözün düzü, çox get-gələ saldılar və yararlana bilmədim. Amma çox istərdim ki, bu layihədən mən də yararlanım və sənətimi inkişaf etdirim. Ümumiyyətlə, xalq sənətini yaşadan, bu işlə məşğul olan sənətkarlara güzəştli kreditlərin verilməsi də çox vacibdir. Çünki buna ehtiyacımız var. Mən işlədiyim ağacları pulla alıram. Bu da elə də ucuz başa gəlmir. Ağacı baha qiymətə alıram. Özü də hər ağacla işləmək olmur. Ağac həddən artıq quru olmalıdır ki, ortaya ürəyimcə işlər çıxsın. Mən artıq ağacların xasiyyətini, onlarla işləmək qaydalarını çoxdan mənimsəmişəm. Bir xalq sənətinin daşıyıcısı kimi çox arzu edərdim ki, dövlətimiz, aidiyyəti qurumlar dəstək göstərsinlər. Dediyim kimi, bu sənəti gələcək nəsillərə ötürmək istəyirəm ki, məndən sonra da bu sənət yaşasın".

*"Bir emalatxanam yoxdur ki, bir neçə istedadlı uşaq götürüb bu sənəti onlara öyrədim"*

Sənətkarın əsas müştərilərinin kimlər olmasına gəlincə, o bildirdi ki, əsərlərini əsasən yerli sakinlərə satır. Turistlərin hələlik onun əsərləri ilə tanış olmadığını deyən usta Mahirin sözlərinə görə, bu da onunla bağlıdır ki, o, evində işləyir və əsərlərini sərgilərə, satış mərkəzlərinə çıxarmır. "Əsasən sifarişlə işləyirəm. Özü də mənə sifariş veriləndə ki, filan şey işlə, əvvəlcədən nə beh alıram, nə də vaxt təyin edirəm, hazır olanda xəbər verirəm gəlib götürür. Müştəri mənim müəyyən etdiyim qiymətlə razılaşmırsa, onda satmıram, əsər özümdə qalır. Mənim işlərimin qiyməti ucuz deyil, əl əməyi olduğu üçün bahadır. İstərdim ki, mənim də əsərlərimi turistlər alıb öz ölkələrinə aparsınlar. Mən çox gözəl əşyalar, nərdtaxtalar, mebellər düzəldirəm, hamısını da kiçik bıçağımla başa gətirirəm. Məndən başqa ağacoyma ustaları da var, öz işlərimlə onların işlərini müqayisə etdikdə görürəm ki, mənim işlərim çox üstündür. Özümü tərifləmirəm, olanı deyirəm".

Övladlarının bu işlə məşğul olmadığını deyən ustanın bildirdiyinə görə, ağacoyma işi ona böyük zövq verir. Əsərləri müştərilərin istəyi ilə deyil, öz istəyilə hazırladığını deyən usta Mahirin bildirdiyinə görə, kiçik suvenirlərdən tutmuş, mebelə qədər hər bir şey yarada bilir. Hətta hədiyyə üçün kiçik qaşıqlar, qablar da hazırladığını qeyd edən ustanın sözlərinə görə, düzəltdikləri əsərlər içində 30-40 min manat qiyməti olan əl işləri də var. "Mən stollar, stullar, yataq və qonaq otağı mebelləri düzəldirəm. Qonaq otağı üçün mebeli qoz ağacından hazırlamışam. Əvvəlcə istədim ki, bu mebeli uşaqlarıma saxlayam, evimdə qalsın, sonra düşündüm ki, satsam yaxşıdır. Bu mebelin qiyməti çox bahadır. Çünku mənim işlərim yüzillər boyu qalasıdır. Çox gözəl əsərlərdir. Bilirsiniz, işləri elə düzəldirəm ki, onlar evin bir küncündə qalmasın, işlədilsin, həyat üçün əhəmiyyətli olsun. Mən çox gözəl saatlar da düzəldirəm. Yəni düzəltdiyim əsərlər içində maraq çəkən işlərim çoxdur. Mənə dəstək göstərilərsə, daha çox iş görə bilərəm. Ümid edirəm ki, aidiyyəti qurumlar səsimi eşidəcək, çünki sənətin yaşaması üçün səsimə səs verilməsi vacibdir" - deyə usta Mahir bildirdi.

**Ümid edirik ki, gəncəli ağacoyma ustası Mahir Dəmirovun öz fəaliyyətini daha geniş miqyasda qurması, eləcə də emalatxana yaratması, burada gənclərlə məşğul olması üçün gərək olan şəraitin yaradılmasına aidiyyəti qurumlar öz dəstəklərini əsirgəməyəcəklər.**

***İradə SARIYEVA***

№ 104 (4002) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

14 İYUN 2019-cu il

www.baki-xeber.com

## Türklərin yaşadığı regionda 40 min illik boz qurd başı tapıldı

**Rusiyanın Sibir vilayətinin şərqində fil dişi axtaran insanlar maraqlı kəşfə imza atıblar.**

"Ölkə.az" xəbər verir ki, araşdırmalar nəticəsində 40 min illik qurd başı tapılıb. Elmi jurnalın məqaləsinə əsasən, Saxa Respublikasının Tirektyax çayı sahillərində tapılan qurd başının uzunluğu 41 sm-dir və bu ölçü müasir bir qurdun bədəninin yarısına bərabərdir. Yakutiya Elmlər Akademiyasının üzvü Albert Protopopov bildirib ki, iqlim dəyişikliyi səbəbindən havalar isindikcə, regionda belə kəşflərin sayı artacaq. "CNN"ə müsahibə verən alim bildirib ki, qütblərdə donmuş qarların əriməsi nəticəsində yeni tarixi kəşflər üzə çıxıb. Saxa Respublikasında əhalinin yarıdan çoxu türkdilli xalqlardır.

## Elan

Əlifova İradə Gülümxan qızının şəxsiyyət vəsiqəsi (AZE №15471520) itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Abbasova Firəngiz Hacımurtuz qızının adına verilmiş 1230568 və 1235567 saylı Daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Baş Layısqı kənd sakini Şirinov Hümmət İlyas oğlunun adına verilmiş A-446079 saylı torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Rəfiyev Elşən Rizvan oğlunun adına verilmiş MERCEDES BENZ markalı minik maşınının 55 BH 550 dövlət nömrə nişanı itdiyi üçün etibarsız sayılır.

Aminov Vaqif Adibala oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, A.M.Şərifzadə küçəsi 56, mənzil 15 ünvanının HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Orucova Yetər İsrafil qızına məxsus, Abşeron rayonu, Xırdalan qəsəbəsi, qeydiyyat N1618011100, reyestr N308011013175 - 10301, 03.07.2018-ci il tarixli DQHDƏDR-dən çıxarış itdiyi üçün etibarsız sayılır.

Qarayev Rauf Məmməd oğluna Abşeron rayonu DTİ və MHQİ tərəfindən verilmiş qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır (ünvan: Xəzər rayonu, Buzovna qəsəbəsində yerləşən fərdi yaşayış evi).

Abbasov Abbas Babulla oğlunun adına, Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı qəsəbəsi, K.Rzayev küçəsi, ev 11, mənzil 13 ünvanının çıxarışı (qeydiyyat vəsiqəsi) itdiyi üçün etibarsız sayılır.

Əhmədova Ceyran Ümüd qızına məxsus, Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, ev 21, mənzil 21 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Əlyarzadə Tunar İlqar qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qaraveliyev Vüqar Yaşar oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Nigar Ağaəhməd qızının adına, Sabirabad rayonu, Zalqarağac kəndində yerləşən torpaq sahəsinə DT və XK tərəfindən 06.08.1998-ci il tarixdə verilmiş dövlət aktı (JN 162 kod 90922028) itdiyi üçün etibarsız sayılır.

Məhərrəmov Adil Əli oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşən torpaq sahəsinə Biləcəri Bələdiyyəsi tərəfindən 18 aprel 2014-cü il tarixdə verilmiş qərar N44 itdiyi üçün etibarsız sayılır.

Köçərli Laya Məhəmməd qızına məxsus, Bakı şəhəri, Ə.Haqverdiyev küçəsi, ev 23, mənzil 32 ünvanının qeydiyyat vəsiqəsi (seriya ÖM N103056) itdiyi üçün etibarsız sayılır.

## "Azercell" uşaqlara dəstək verməyə davam edir

**Öz Korporativ Sosial Məsuliyyət siyasətində uşaqların müdafiəsi və hüquqlarının qorunmasına yönəlmiş təşəbbüslərə xüsusi önəm verən "Azercell Telekom" MMC-nin dəstəyilə həyata keçirilən layihələrdən biri "Uşaq Qaynar Xətt" xidmətidir.**

Uşaqlarla iş sahəsində geniş təcrübəyə malik olan psixoloqlar, hüquqşünaslar və sosial işçilərdən ibarət heyətə malik "Qaynar Xətt" xidmətinin əsas məqsədi uşaqlara ilkin psixoloji yardımın, emosional dəstəyin, habelə müxtəlif problemlərin həllinə dair məsləhətlərin verilməsi, reabilitasiya mərkəzlərinə və digər xidmətlərə yönləndirmə və təxirəsalınmaz köməyin göstərilməsidir. Təkcə bu ilin may ayı ərzində xidmətdən yararlanan uşaqların sayı 421 nəfər təşkil edib. Bu müraciətlərdən 217-si təhsil, 33-ü psixoloji, 7-si səhiyyə, 35-i sosial, 39-u hüquqi problemlərlə bağlı olub. Onu da qeyd edək ki, müraciətlərdən 370-i 18 yaşdan yuxarı, 48-i isə 18 yaşdan aşağı vətəndaşlarımıza aiddir. Ümumilikdə, yanvar-may ayları ərzində "Uşaq Qaynar Xətt" xidmətinə 1603 zəng daxil olub. 2010-cu ildən 2019-cu ilin iyun ayına qədər isə xidmətdən 37 895 uşaq yararlanıb. "Uşaq Qaynar Xətt"inin ölkənin istənilən nöqtəsində əlçatan olmasını təmin etmək üçün, "Azercell" şirkətinin təşəbbüsü ilə 2017-ci ildə İOS və Android əməliyyat sistemlərini dəstəkləyən mobil tətbiqi istifadəyə verilib. 2018-ci ilin iyun ayının 13-dən isə xidmətin Göygöl ofisi fəaliyyətə başlayıb. Mərkəz Göygöl rayonunun sakinləri ilə yanaşı, ətraf rayonlarda (Goranboy, Gəncə, Şəmkir, Qazax, Ağstafa) yaşayan uşaqlara da xidmət göstərir. Qeyd edək ki, "Azercell Telekom" MMC-nin dəstəyi, "Ümidli Gələcək İctimai Birliyi"nin təşkilatçılığı ilə 24 saat fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə həm şəhərdaxili, həm də "Azercell" nömrələrindən edilən zənglər ödənişsizdir. (012) 480 22 80, (050) 680 22 80, (051) 880 11 80, (051) 880 22 80 və (051) 580 22 80 nömrələri ilə günün istənilən saatında "Qaynar Xətt" xidmətinə müraciət etmək imkanı yaradılıb. Xidmət haqda ətraflı məlumatı www.usaqxetti.az internet səhifəsindən əldə etmək mümkündür. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Müştərilərin rahatlığı üçün "Nar" artıq hipermarketdə

**Müştərilərinin rahatlığını və xidmət səviyyəsini daha da artırmaq məqsədilə "Nar" satış nöqtəsi insanların daha çox olduğu məkanlarda da xidmət göstərməyə başlayır.**

Mobil operator "Bravo" supermarketlər şəbəkəsinin Əhmədli qəsəbəsində yerləşən filialında yeni satış nöqtəsini istifadəyə verib. Hipermarketdə yerləşən satış nöqtəsində "Nar" öz müştərilərinə müxtəlif təkliflərlə xidmət göstərəcək. Müştərilər bu məkanda "Nar" nömrələrini və Wi-FI ruterini ala, eyni zamanda, SİM kart dəyişikliyi edə bilərlər. Gələcəkdə digər hipermarketlərdə də "Nar" satış nöqtəsinin açılması planlaşdırılır. Qeyd edək ki, yeni satış nöqtəsi Xətai rayonu, Ramiz Quliyev küçəsi 4 ünvanında yerləşən "Bravo" hipermarketində yerləşir. İş saatı isə həftənin bütün günləri, saat 10:00-dan 19:00-a qədərdir. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Gün ümumən uğurlu olsa da, kiçik problemlər, anlaşılmazlıqlar və uğursuz təsadüflər əhvalınızı korlaya bilər. Nikbin olun, ruhdan düşməyin. Çətinliklər müvəqqətidir. İşsiz oturmayın, çalışın.



**Buğa** - Aktiv çalışmaq üçün əlverişli gündür. Mənzil və ya ev almaq, kirayəyə götürmək fikriniz varsa, işi təxirə salmayın. Amma ilkin danışıqlarda sayıq olun. Maliyyə məsələlərində sadəlövhlük etməyin.



**Əkizlər** - Uğurlu gün olmayacaq. Lakin günün ikinci yarısına yaxın əlverişli imkanlar yaranacaq. Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün şansdan yararlanın. Planları həyata keçirin və ya nüfuzlu insanı işinizlə maraqlandırın.



**Xərçəng** - Sadə gün deyil. Yeni işlərə başlamaq, layihəyə start vermək, müttəfiqlər axtarmaq üçün düşərli zaman deyil. Aktiv çalışın, uzun-uzadı istirahət etməyin. İmiclə eksperimentlər etməyin.



**Şir** - Günün ilk yarısında əlverişsiz emosional fon var. Əhvalınız dəyişəcək. Yaxın ətrafınızdakı insanlarla dil tapmaq çətinləşir, fikirlərinizdəki qarışıqlığı aradan qaldırmaq müşkül məsələyə çevrilir.



**Qız** - Günün ilk yarısı bilik, bacarıq və təcrübənin artırılması, yeni informasiya alınması, faydalı təcrübənin əxz olunması üçün əlverişlidir. Ciddi problemləri həll etməyə, çətin suallara cavab aramağa çalışın.



**Tərəzi** - Bütün məqsədlər əlçatan təsir bağışlayır. Fəqət, qüvvə və potensialınızı olduğundan artıq saymayın, çətin işləri təkbaşına həll etməyə çalışmayın. Yaxın ətrafınızdakı insanın təklif etdiyi yardımdan boyun qaçırmayın.



**Əqrəb** - Gün ərzində yaşanan xoşagəlməz hadisələri soyuqqanlılıqla qarşılayın, stoik olun. Təmkin və səbr sayəsində çətin situasiyalardan çıxış yolu tapmaqla yanaşı, bunu bacara bilməyən insanlara da yardım edəcəksiniz.



**Oxatan** - Günün ilk yarısı aktiv fəaliyyət, ruh yüksəkliyi və yeni ideyaların peyda olduğu zamandır. Dərhal uğur əldə edəcəyinizi düşünməyin. Lakin bu vaxt gördüyünüz işlərdə fayda var.



**Oğlaq** - Gün ciddi problemlər vəd etməsə də, kiçik anlaşılmazlıqlar olacaq. Vaxtında qəbul edilmiş səhih qərar hər şeyi yoluna qoymağınıza imkan verəcək. Yaşlı qohumlarla fikir ayrılıqları, pula görə mübahisələr istisna deyil.



**Dolça** - Günün ilk yarısında ehtiyatlı olun. Hər addımı yaxşı düşünün, hər qərarı götür-qoy edin. Gərəksiz əlaqə və təmaslara can atmayın. Yaramaz insanlarla ünsiyyətdən tamamən qurtulmaq mümkün deyil.



**Balıqlar** - Köhnə dostlarla yanaşı, yeni tanışlar üçün ünsiyyət yaxşı alına bilər. Yaxın ətrafınızdakı insanlarda müsbət təəssürat yaradırsınız. İşlərin irəliləməsi üçün konkret problemləri sürətlə həll edin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Süni intellekt dövründə qadınlar işsiz qalacaqlar...

**Avtomatlaşma və süni intellekt dövründə qadınlar gəlirlərinin azalması və gender bərabərsizliyi ilə üzləşə bilər.**

"Oxu.az" xəbər verir ki, bu barədə "McKinsley Global İnstitute" (MGI) təşkilatının qadınların rəqəmsal iqtisadiyyatdakı rolu haqda hesabatında deyilir. MGİ-nin məlumatına görə, 2030-cu ilə kimi yeni texnologiyalar sayəsində əlavə 171 milyona yaxın iş yeri açılacaq. Qadınlar arasında məşğulluq səviyyəsi kişilərlə müqayisədə daha yüksək templərlə artacaq. Bunu ilk növbədə qadınların dominant təşkil etdiyi səhiyyə sektorunun sürətlə inkişaf etməsi ilə əlaqələndirirlər. Ancaq yeni vakansiyalara götürülmələri üçün qadınlar ixtisaslarını artırmalı olacaqlar: söhbət 40 milyondan 160 milyona qədər zərif cins nümayəndəsindən gedir. Qadınlar işsiz qalmamaları üçün mütləq müasir texnoloji trendlərlə ayaqlaşmalı, lazımı rəqəmsal bilik və vərdişlərə yiyələnməlidirlər. İxtisası artıran namizədlər yüksək gəlirli iş yerlərində çalışacaq. Qalanları gəlirlərinin azalması və gender bərabərsizliyi ilə üzləşəcək.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.